

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Yeni Azərbaycan Partiyası ICAPP ilə əməkdaşlığa mühüm əhəmiyyət verir"**



4


# SƏS

№ 128 (6811)

22 iyul 2023-cü il.
Qiymәti 60 qәpik


## İlham Əliyev: "Şuşa şəhəri bizim cəsarətimizin rəmzidir!"




5

**Prezident İlham Əliyev Şuşada keçirilən Qlobal Media Forumunun açılış mərasimində çıxış edib**

# 148 yaşlı "Əkinçi"

## Əsrlərə qovuşacaq tarix - 22 iyul 1875-ci il




10

Mixail Qusman: "Forumun davam etdiyi növbəti iki gündə hamı Prezident İlham Əliyev ilə görüşdən ruhlanacaq"



4

"Tolstoy fikirlərinə görə Azərbaycandan üzr istəməlidir"



14

## Radikal müxalifətin "bazarkomu" kimdir?



11




**Biz nə qədər jurnalistik?**

15

**Bizim günümüz...**



11

# Hər gün dirçələn, gözəlləşən Şuşa!

## Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən kompleks tədbirlər mədəniyyət paytaxtımızı regionun ən gözəl şəhərlərindən birinə çevirəcək

Bəli, Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq 44 günlük qələbəmizdən iki il yarım keçməsinə baxmayaraq bu istiqamətdə genişmiqyaslı işlər görülür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.

Bəli, bu gün Qalib Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı -"Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etdi, hazırda da "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir. Bir sözlə, bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəsalan





torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq və Azərbaycan dünyanın ən abad, gözəl, inkişaf etmiş dövlətləri sırasında olacaqdır.

Eyni zamanda, dövlət başçımızın işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.

### PREZİDENT İLHAM ƏLİYEVİN ŞUŞAYA NÖVBƏTİ SƏFƏRİ BİR DİRÇƏLİŞ, BİR YENİLİK, BİR UĞURDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşaya hər səfəri uğurlu tarixi hadisədir. Cari ilin iyul ayının 21-də Şuşaya səfər edən dövlətimizin başçısı Şuşa şəhərinin Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, kəndində özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub, 90 çarpayılıq Şuşa şəhər xəstəxanasında və Şuşa şəhər 960 şagird yerlik 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış olub. Kənddə ictimai və yaşayış mərkəzlərinin, mədəniyyət və təhsil ocaqlarının qurulması, sosial və ictimai obyektlərin inşası, turizm sahələrinin yaradılması, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi, ərazinin yaşıllaşdırılması, kəndin ekoloji təmiz enerji ilə qidalandırılması üçün infrastrukturun təmin olunması nəzərdə tutulduğu bildirilib. 220 ailənin köçürülməsi planlaşdırılan kənddə məskunlaşdırılması nəzərdə tutulan əhalinin ümumi sayı isə 1100 nəfər olacaq. Sakinlərin yaşayışı üçün ümumilikdə 228 ev inşa ediləcək. Bundan başqa, ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Kənddə, həmçinin məscid, Bayraq meydanı, informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, qida məhsullarının satış köşkləri, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, otel və istirahət mərkəzi, aktiv turizm və istirahət zonalarının yaradılması planlaşdırılır.

Qeyd edildi ki, Daşaltı kəndində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin və turizm obyektlərinin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir. Daşaltıda 2,4 hektar ərazidə kənd üslubunda otel və istirahət mərkəzi tikiləcək. Otel kompleksi ikimərtəbəli 10 binadan ibarət olacaq. Ümumilikdə 48 nömrədən ibarət olacaq otel kompleksində restoran, əyləncə və idman-sağlamlıq mərkəzləri, uşaqlar üçün oyun meydançası, istirahət parkı yaradılacaq. Prezidenti İlham Əliyev, həmçinin 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının binasında tikinti işlərinin gedişi ilə tanış olub.

Xatırladaq ki, Şuşa şəhər xəstəxanasının təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Bildirildi ki, 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb.

Ardı Səh. 3

Əvvəli Səh. 2

# Hər gün dirçələn, gözəlləşən Şuşa!

## Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən kompleks tədbirlər mədəniyyət paytaxtımızı regionun ən gözəl şəhərlərindən birinə çevirəcək

Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə olunacaq, zərurət yarandıqda hərbi hospital kimi fəaliyyət göstərəcək. Stasionar xidmət sahəsində qəbul, terapiya, pediatriya, cərrahiyyə, doğuş, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək.

Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Xəstəxananın Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar - 1.5 TL maqnit-rezonans tomoqrafiya və 32 kəsikli kompüter tomoqrafiya aparatları ilə təchiz olunacaq. Stansiyada hər növbədə dörd briqada fəaliyyət göstərəcək.

Şuşa şəhər xəstəxanasının ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, yoluxucu xəstəliklər







və hemodializ korpusları inşa olunacaq. Qeyd edək ki, təməli qoyulan Şuşa şəhər xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biridir. Bu, həm də onu göstərir ki, azad edilmiş digər ərazilərdə olduğu kimi, Şuşada da səhiyyə ocaqlarının inşası dövlətimiz üçün prioritet məsələlərdəndir.

Prezident Daşaltıda yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub. Dövlət başçısı, həmçinin Şuşa şəhər 960 şagird yerlik 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış olub.

### BƏLİ, 2020-Cİ İLİN 8 NOYABRI QARABAĞIN BAŞ TACI ŞUŞANIN AZADLIĞA QOVUŞDUĞU, 2012-Cİ İLİN 14 YANVARINDAN DİRÇƏLİŞƏ DOĞRU GEDİR

Bəli, Şuşa inkişaf edir, gözəlləşir, dirçəlir. Ulu öndər Heydər Əliyevin dediyi kimi, ”Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir”.

Bəli, məhz Şuşa Zəfərimizin tacı olduğu üçün Prezident İlham Əliyev mayın 8-də ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına təbrik müraciətini Şuşadan edib: ”Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam”.

”Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi... Ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır”, - deyə Azərbaycan Prezidenti bildirib.

Dövlətimizin başçısı müraciətində bildirib ki, Şuşa 1992-ci ilin may ayında məhz milli xəyanət və satqınlıq nəticəsində düşmənə təhvil verilib: ”Şuşa alınmaz qaladır. Bunu hər kəs bilir. Məhz hakimiyyətə gəlmək üçün Şuşanı boşaltdılar. Şuşa işğal olunandan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmiş və öz arzusuna çatmışdır”.

Qarabağ probleminin həllini tapmadığını, hakimiyyətdə olanların ancaq şəxsi mənafeyini düşündüklərini vurğulayan dövlətimizin başçısı qeyd edib: ”Talançılıq, soyğunçuluq, özbaşınalıq, anarxiya, xaos, torpaqlar əldən gedirdi, ovaxtkı AXC-Müsavat hakimiyyəti isə Ermənistana yanacaq satırdı. Görün, bu insanlar öz xalqına nə dərəcədə nifrətlə yaşamışlar ki, bu ağır günlərdə öz ciblərini doldurmaq üçün bu çirkin əməllərə də əl atmışlar. Hakimiyyətdə qalmaq üçün hətta vətəndaş müharibəsinə də rəvac verdilər”.

Belə bir şəraitdə Şuşanın işğal olunduğunu vurğulayan dövlətimizin başçısı ondan sonra faciələrimizin daha da artdığını bildirib: ”Şuşa işğal olunandan sonra Laçının taleyi də demək olar ki, böyük təhlükə altında idi və on gün sonra Laçın da işğal olundu. 1993-cü ilin aprelində

Bəli, bu gün

### ”ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK ARZUSU ŞUŞANI, QARABAĞI VƏ ZƏNGƏZURU AZAD GÖRMƏK İDİ. BİZ ONUN VƏ BÜTÜN AZƏRBAYCAN XALQININ, BÜTÜN DÜNYA AZƏRBAYCANLILARININ ARZUSUNU ÇİN ETDİK”

- deyən Qalib Lider Prezident İlham Əliyev onu da bildirdi ki, il başlayandan Ulu Öndərin həyatı, fəaliyyəti ilə bağlı bir çox tədbirlər keçirilir, müzakirələr aparılır: ”Eyni zamanda, hesab edirik ki, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik. Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır”.

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, ”Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

Və bu gün, 20 il öncə ulu öndər Heydər Əliyevin söylədiyi: ”Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”,- sözlərinin reallığı çevriləcəyinə inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 20 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.

Prezident İlham Əliyev Şuşadan xalqa müraciətində də bildirdi: ”2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq”.

Bəli, bu gün Qarabağ, Zəngəzur yenidən qurulur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Bu gün Şuşa 30 ildən sonra 8 mayı azad, qalib xalq kimi qarşılayır. Və bu gün Şuşa böyük quruculuq, inkişaf yolundadır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 8-də Şuşaya səfərləri, səfər çərçivəsində görülən işlər bir daha deyilənlərin reallığıdır.

Bir sözlə, Prezident İlham Əliyev cənablarının Şuşaya hər səfəri tarixi hadisə olaraq əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, biz 44 gün ərzində möhtəşəm qələbə qazandığımız kimi, Zəfərin davamı olan quruculuq işlərini də uğurla başa çatdıracağıq.

Dövlət başçımızın dediyi kimi: ”Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”.

**RƏFİQƏ KAMALQIZI**

# "Yeni Azərbaycan Partiyası ICAPP ilə əməkdaşlığa mühüm əhəmiyyət verir"

## YAP Mərkəzi Aparatının rəhbəri ilə ICAPP-ın baş katibi arasında görüş keçirilib







**Kamboca Krallığında iyulun 23-də keçiriləcək parlament seçkilərini Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) missiyasının tərkibində müşahidə etmək məqsədilə bu ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov iyulun 21-də ICAPP-ın baş katibi Ahn Myung-soo ilə görüşüb.**

Görüşdə Tahir Budaqov Yeni Azərbaycan Partiyasının ICAPP ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini, qarşılıqlı faydalı əlaqələrin daha da genişləndirilməsinin önəmini vurğulayıb. Öz növbəsində Ahn Myung-soo Yeni Azərbaycan Partiyasının ICAPP-ın Daimi Komitəsinin üzvü kimi qurumun fəaliyyətində yaxından iştirak etdiyini bildirərək birgə səylərlə əməkdaşlığın davamlı inkişaf edəcəyinə əminliyini ifadə edib. Görüşdə YAP-ın yeni yaradılmış ICAPP Biznes Şurasındakı fəaliyyəti və əməkdaşlığın perspektivləri barədə də fikir mübadiləsi aparılıb.

Həmin gün ICAPP-dan olan müşahidəçilər "Kamboca Milli Assambleyasına seçkilərin tarixi və perspektivləri" mövzusunda Kamboca Milli Seçki Komitəsi, Vətəndaş Cəmiyyəti Alyansı Forumu və Daxili İşlər Nazirliyi tərəfindən təşkil olunmuş brifinqdə iştirak ediblər. Brifinqdə Kamboca Milli Assambleyasına Seçkilər haqqında Qanunun mahiyyəti, VII çağırış Milli Assambleyaya seçkilərdə təhlükəsizliyin təmin edilməsi istiqamətində görülən tədbirlər, eləcə də Kambocanın tarixi və mövcud ictimai-siyasi vəziyyəti haqqında məruzələr dinlənilib, iştirakçıların sualları cavablandırılıb. Günün sonunda ICAPP missiyasının üzvləri Baş nazirin keçmiş müavini mərhum Samdek Vibol Panha Sok Anın həyat yoldaşı xanım Eni Sok Anın adından verilən şam yeməyinə qatılıblar.

Qeyd edək ki, ICAPP-ın müşahidə missiyasının tərkibinə YAP üzvü, "Millennium Tourism & Congress DMC"nin həmtəsisçisi və baş icraçı direktoru, ICAPP Biznes Şurasının üzvü Ruslan Quliyev də daxildir.

## Mixail Qusman: "Forumun davam etdiyi növbəti iki gündə hamı Prezident İlham Əliyev ilə görüşdən ruhlanacaq"

Açıq, səmimi, çox dərin və vacib söhbətə görə Prezident İlham Əliyevə təşəkkür edirik. Prezident qlobal media ictimaiyyətinin liderləri ilə iki saatdan çox vaxt keçirib, bütün suallara ətraflı, inandırıcı, əsaslı cavab verib. Biz indi müxtəlif ölkələrdən həmkarlarımızla, dostlarımızla təəssüratımızı bölüşdük. Bütün bunlar mənim bütün həmkarlarıma inanılmaz təsir bağışlayıb.



Bunu TASS informasiya agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusman "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda jurnalistlərə açıqlamasında deyib.

"Biz Prezidentin problemləri necə bildiyini, onun problemləri necə dərindən tədqiq etdiyini hər zaman bilirdik. Lakin bugünkü söhbət son dərəcə inanılmaz oldu. Bütün mövzular - həm beynəlxalq, həm daxili, həm Ermənistan ilə sülh müqaviləsinin bağlanması ilə əlaqədar Azərbaycan üçün ən aktual problemlər, ölkənin inkişafı ilə bağlı strateji məsələlər, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının lideri kimi mövqeyi əhatə olunub. Bütün bunlar Prezidentdən bizə çox böyük hədiyyə oldu. Bu, eyni zamanda, forum üçün güclü impulsdur", - deyə M.Qusman diqqətə çatdırıb. O vurğulayıb ki, forumun işinin davam etdiyi növbəti iki gündə hamı Prezident İlham Əliyev ilə görüşdən ruhlanacaq.

## Azerconnect şirkəti Milli Mətbuat Günü münasibətilə jurnalistləri bir araya topladı

Azerconnect şirkəti 22 iyul Milli Mətbuat Günü münasibətilə Şamaxıda jurnalistlər üçün "Telekommunikasiyada müasir çağırışlar" mövzusunda iki günlük seminar təşkil edib. Seminarın keçirilməsində əsas məqsəd telekommunikasiya sahəsində ölkəmizdə və dünyada baş verən yeniliklər və mövcud çağırışlar, Azərbaycanda telekommunikasiya operatorlarının fəaliyyətində tətbiq olunan innovasiyalar və inkişaf perspektivləri barədə media işçilərinin məlumatlılığını artırmaq olub. Azerconnect şirkətinin marketinq üzrə Baş müdiri Müşfiq Əliyev, Korporativ kommunikasiya departamentinin rəhbəri Əlimərdan Sultanov, İnformasiya texnologiyaları və əsas şəbəkə üzrə aparıcı direktoru Pərviz İsmayılov mətbuat nümayəndələrini 22 iyul Milli Mətbuat Günü münasibətilə təbrik edərək təqdimatlar ilə çıxış ediblər.



Spikerlər Azerconnect şirkəti və onun telekommunikasiya sektorunda göstərdiyi xidmətlər, icra olunan layihələr, sözügedən sahədə dinamik dəyişikliklər, müasir çağırışlar, şirkətlərin və müştərilərin gözləntiləri, gələcək inkişaf istiqamətləri barədə ətraflı məlumat veriblər. Daha sonra media nümayəndələrinin çoxsaylı sualları ətrafında fikir mübadiləsi aparılıb. Seminarda ümumilikdə ölkənin 30-a qədər aparıcı media qurumlarını təmsil edən jurnalistlər iştirak edib.

# "Ana dili - Azərbaycan məktəbi" adlı tədbir keçirilib

İyulun 18 də İsrailin Kiryat Yam şəhərində Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzində məhz Mərkəzin Direktoru Ben Sion Şmoelovun rəhbərliyi və təşəbbüskarlığı ilə "Ana dili - Azərbaycan məktəbi" layihəsi ilə əlaqədar olaraq tədbir keçirilib. SİA xəbər verir ki, bu barədə İsraildəki Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzinin məlumatında bildirilir ki tədbirdə mərkəzin kollektivi də iştirak edib.

Tədbir çox maraqlı və yaddaqalan oldu. Tədbiri maraqlı edən əsas məsələ təzə Azərbaycan dili əlifbası haqqında danışılmasıdır. Bir çox insan bu hərfləri oxuya bilmirlər. Biz onlara yeni əlifba barədə məlumat verdik.

Diasporla İş üzrə Dövlət Komitəsinin nəşr etdirdiyi "Azərbaycan dili" dərsliyi tədbir iştirakçılarına təqdim edilib. "Azərbaycan dili" dərsliyi ilə tanış olan tədbir iştirakçıları bu dərslik əsasında Azərbaycan dilinin İsraildə təbliğ olunması istiqamətində fəaliyyət göstərəcəklərini bildiriblər.

Tədbir iştirakçıları hamılıqla Bakıdan gətirdiyimiz qəzetləri də həvəslə oxudular. Bakıdan İsrailə gətirdiyimiz qəzet və kitablar hər kəsə çox maraqlı olub. Tədbir zamanı süfrəmizi Azərbaycan və İsrail bayraqları həmçinin Azərbaycanın milli mətbəxinə aid olan şəkər buralar, paxlavalar bəzəyirdi. Çalışdıq ki Azərbaycanın milli mətbəxindən tutmuş məhz tarixin dərinliyindən süzülüb gələn bütün milli adət ənənələrini milli Folklorunu Ədəbiyyatını Azərbaycan dilinin zənginliyini və əsrarəngizliyini Azərbaycan xalqının və dövlətinin tolerantlığını mehriban simasını dostluq və qardaşlığını Azərbaycandakı ta qədimdən bu günümüzə qədər inkişaf edən ali dəyərləri səsləndirməyə və təbliğ etməyə çalışdıq. Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzinin Direktoru Ben Sion Şmoelov bildirdi ki Azərbaycan xalqı ilə Yəhudi xalqı millillərdir ki dost və qardaş xalqdır. Azərbaycan xalqı ilə Yəhudi xalqı hər zaman dostluq və qardaşlıq şəraitində mehriban yaşayıblar. Azərbaycanda yüksək tolerantlıq və mehriban yaşam ənənəsi var. Multikultural və tolerant dəyərlər Azərbaycan xalqının ta qədim dövlərdən üzübəri gələn və qədimdən bu günümüzə qədər mövcud olmuş və bu gün isə Azərbaycan dövlətinin rəsmi dövlət siyasətidir. Azərbaycan xalqının ümummilli lideri müasir Azərbaycan dövlətinin qurucusu dahi şəxsiyyət Heydər Əliyev Azərbaycana rəhbərlik etdikdən sonra bu ali dəyərlər daha da inkişaf etdirilərək rəsmi dövlət siyasətinə çevrilmiş və bu gün bu ali dəyərlər Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən də yüksək şəkildə davam etdirilir. Xüsusən Yəhudilərə Azərbaycanda hər zaman böyük hörmət göstərilib. Biz Yəhudilər hər zaman Azərbaycanı özümüzə öz doğma ana vətənimiz hesab edirik. Bizə hər zaman Azərbaycanda Azərbaycan dövləti və Azərbaycan xalqı tərəfindən yüksək mehribanlıq və doğmalıq göstərilib. Azərbaycan dünyada ən nümunəvi ölkələrdəndir. Həmçinin Azərbaycan Mədəniyyəti Tarixi Ədəbiyyatı Milli Folkloru Dili adət ənənələri və yaşam tərzi çox zəngin və ecazkardır. Azərbaycandan xaricə və İsrailə köçən hər bir Yəhudi Azərbaycanı çox sevir. Tədbirdə iştiral edən hər kəs Azərbaycanın milli adət-ənənələrindən tolerant dəyərlərindən geniş nitq söyləyiblər.

Qeyd edilib ki bizlər Azərbaycandan hər nə qədər uzaqda olsaq da, Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan dilinə, Azərbaycanın milli adət-ənənələrinə məhəbbətimiz hər zaman sonsuzdur. Biz 30-40 ildən artıq vaxtdır İsraildə yaşasaq da Azərbaycan dilini hələ də öz ana dilimiz hesab edirik. Tədbirdə Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzinin direktoru Ben Sion Şmoelovun təqdim etdiyi sənədlər arasında Mirzə Xəzərin 35 il əvvəl yazmış olduğu və bu günə qədər Ben Sion Şmoelovun indiyə qədər şəxsi arxivində saxlanılmış Mirzə Xəzərin məhz Azərbaycan dilinə aid məktubu da var idi.

Bütün tədbir iştirakçıları doğma Azərbaycana xeyir-dualar və əmin-amanlıq arzu edərək hər zaman Azərbaycan xalqının və dövlətinin yanında olacaqlarını Azərbaycanın milli maraqlarının qorunmasında hər zaman öz dəstəyini əsirgəməyəcəyini hər zaman doğma Azərbaycan dövləti və xalqı ilə birlikdə olacaqlarını vurğuladılar. Azərbaycan dövləti və xalqı İsrailin ən dostu və müttəfiqidir. Azərbaycan dövləti ilə İsrail dövləti arasındakı dostluq və qardaşlıq əlaqələrinin tərəfdaşlıq və müttəfiqliyin daha da möhkənməli olduğu bütün tədbir iştirakçıları tərəfindən yekdilliklə qeyd edilib.

# İlham Əliyev: “Şuşa şəhəri bizim cəsarətimizin rəmzidir!”

*Prezident İlham Əliyev Şuşada keçirilən Qlobal Media Forumunun açılış mərasimində çıxış edib*

**İyulun 21-də ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda çıxış edib və iştirakçıların suallarını cavablandırıb.**

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir: ”Mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir. Xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni, bu, media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir”, - deyə dövlətimizin başçısı vurğulayıb.




**Prezident:**
"Şuşa Qlobal Media Forumu ölkəmiz üçün çox möhtəşəm tədbirdir"



Prezident İlham Əliyev qeyd edib ki, Şuşa Qlobal Media Forumu bizim ölkəmiz və Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir. ”Şuşa rəsmi olaraq Azərbaycanın Mədəniyyət Paytaxtıdır və bizim qələbəmizin rəmzidir. Şuşa, eyni zamanda, sülhün rəmzidir. Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı”, - deyə dövlətimizin başçısı bildirib.

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, Şuşa şəhəri bizim cəsarətimizin rəmzidir. Şuşada artıq bir neçə beynəlxalq tədbirin - ”Xarıbülbül” Beynəlxalq Musiqi Festivalının, Vaqif Poeziya Günlərinin və digər tədbirlərin keçirildiyini vurğulayan dövlətimizin başçısı deyib ki, işğal dövründə məqsədli şəkildə dağıdılmasına baxmayaraq, bu şəhər öz kimliyini qoruya bilib.



Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, ikinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə defakto mövcud olan münasibətləri rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq.

Dövlətimizin başçısı Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayaraq deyib: ”Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük nailiyyətdir, böyük sərvətdir. Həmin bəyannamə bizim qarşımızda yeni üfüqlər açır. Bizim Prezident Rəcəb Tayyib Ərdoğanla şəxsi dostluğumuz təkcə regionda deyil, dünyada məlum bir faktordur. Bu, regional inkişaf və sabitlik baxımından da çox mühüm bir faktordur.”

Türkiyə ilə Azərbaycan xalqları arasında da münasibətlərin uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulduğunu vurğulayan dövlətimizin başçısı deyib: ”Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir və bir-birini dəstəkləyir. İkinci Qarabağ müharibəsinin ilk saatlarından Türkiyə rəhbərliyi ilə xalqı bizimlə çiyin-çiyinə dayanmışdı. Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi bəyanat ki, Azərbaycan yalnız deyil, - bu, bizim üçün çox böyük dəstək idi. Biz bütün 44 gün ərzində həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik. Prezident Ərdoğan bir neçə dəfə ictimai şəkildə Türkiyənin mövqeyini bəyan etdi və digər dövlət rəsmiləri də bu məsələ ilə bağlı fikirlərini bildirdilər. Bu, bizim üçün çox böyük mənəvi və siyasi dəstək idi.

Biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, təhlükəsizlik təmin edilməlidir. Gələcəkdə burada həm qlobal məsələlərdə, xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmlidir və vacibdir.” Ankaranın sabitləşdirici rol oynadığını vurğulayan dövlətimizin başçısı deyib: ”Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir. Bu rol həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir”.

Azərbaycan Prezidenti daha sonra qeyd edib ki, torpaqlarımızı azad edəndən sonra biz ölkəmizə qarşı potensial təhlükə görmürük:

**Azərbaycan Prezidenti:**
"Cəmiyyətimizdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir"



”Daxildə hər hansı bir təhlükə yoxdur, ölkə sabitdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir, ölkənin iqtisadi inkişafı olduqca təsirlidir”,- deyən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir. ”Biz öz resurslarımızla özümüzü təmin edirik və yaxşı idarəçilik həyata keçiririk.

Ardı Səh. 6

# İlham Əliyev: “Şuşa şəhəri bizim cəsarətimizin rəmzidir!”

*Prezident İlham Əliyev Şuşada keçirilən Qlobal Media Forumunun açılış mərasimində çıxış edib*

Əvvəli Səh. 5

Bizə keçmişdə olan təhlükə 30 il ərzində Ermənistan və onun işğalçılıq siyasətindən qaynaqlanırdı. Artıq biz ümumilikdə bu təhlükənin öhdəsindən gəlmişik. Ancaq, əlbəttə, biz ayıq olmalıyıq, keçmişimizi unutmamalıyıq.”

O zaman Ermənistanın Azərbaycanda olan xaosdan istifadə edərək ərazilərimizi işğal etdiyini bildirən dövlətimizin başçısı vurğulayıb: ”Biz unutmamalıyıq ki, hətta İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistanın, cəmiyyətin və hətta hökumətin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır. Biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə möhtəşəm Zəfərimizi nümayiş etdirən Qarabağ müharibəsi bitən kimi biz dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq.”

Bu gün Ordumuzun üç il bundan əvvəlki ordudan daha güclü olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib: ”Əlbəttə ki, buna ehtiyac var, o da bizim tariximizdən qaynaqlanır. Biz görürük ki, bu gün beynəlxalq hüququn normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir, biz uzun illər bu yanaşmaya məruz qalmışıq”.




**"Ermənistanda müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır"**





**"Proses başlayıb, əli Azərbaycan xalqının qanına batmış cəlladlar cəzalandırılır"**

BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmalı olduğu ilə bağlı dörd qətnamə qəbul etdiyini xatırladan Prezident qeyd edib: ”Ancaq o qətnamələrə riayət edilmədi və bu gün həmin o tendensiya davam edir. Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda, sülhün qarantiyası yalnız gücdür. Bilirsiniz, əslində, regional inkişaf, - Cənubi Qafqazı nəzərdə tuturam, - əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır. Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Xoşbəxtikdən bu günədək gördüklərimiz odur ki, bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır. İkinci Qarabağ müharibəsindən indiyədək təxminən üç il keçib. Biz getdikcə daha çox birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın hissəsidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Dövlətimizin başçısı daha sonra bildirib ki, ermənilər Azərbaycan ərazisində uzun müddətdir ki, yaşamışlar. Onların Qarabağa kütləvi köçü XIX əsrin birinci yarısında başlamışdır.

1805-ci ildə Kürəkçay müqaviləsi nəticəsində Qarabağ xanlığının, ondan sonra imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanın digər xanlıqlarının da Rusiya imperiyasının daxilinə salındığını xatırladan dövlətimizin başçısı qeyd edib: ”Ondan sonra daha çox İrandan və Şərqi Anadoludan ermənilərin kütləvi məskunlaşması prosesi başlamışdır. Bunu təsdiqləyən çoxlu sənədlər var. Görkəmli dövlət xadimlərinin yazıları, məktubları, açıqlamaları - bütün bunlar tarixən təsdiqlənir. Yəni, onlar bu torpaqlara, Qarabağ torpağına, o cümlədən Şuşaya qonaq kimi gəlmişdilər”.

Azərbaycan Prezidenti çıxışı zamanı diqqətə çatdırıb ki, Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə yeni bir nəfəs qazanmışdır. Son zamanlar Qoşulmama Hərəkatının nüfuzunun və təsirinin tədricən deqradasiya etdiyini, praktiki olaraq Hərəkatın fəaliyyəti ilə bağlı müəyyən müzakirələrin aparıldığını vurğulayan dövlətimizin başçısı bildirib: ”İstənilən işdə olduğu kimi, biz bu işə də böyük məsuliyyətlə yanaşdıq və addım-addım institusional inkişaf istiqamətində işləməyə başladıq. Azərbaycanın sədrliyi yekdilliklə birillik uzadıldı. Amma faktiki olaraq bu, bir il yarımlıq uzadılma oldu. Bu, o deməkdir ki, bizim sədrliyimizə ehtiyac var və o, müsbət qarşılanıb”.

Dövlətimizin başçısı daha sonra ərazilərin minalardan təmizlənməsi barədə danışıb. ”Biz (ərazilərin minalardan təmizlənməsində - red.) dronlardan fəal şəkildə istifadə edirik. Bizim bəzi parlaq zəkaya malik insanların sayəsində belə artıq dronlar var. Bu, bizə böyük kömək olur. Biz dərk edirik ki, bu, çox uzun prosesdir.”

Ermənilərin bizə qarşı terrorunun davam etdiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib: ”Biz minalardan təmizlənməmiş əraziləri təcrid etmişik və azad olunmuş ərazilərə giriş hələ də məhduddur. Bu, bizə imkan verir ki, itkilərin qarşısını alaq. Ancaq keçmiş məcburi köçkünlər kütləvi şəkildə qayıdacaqsa, onlar çox ehtiyatlı olmalıdırlar”.

”Biz (İkinci Qarabağ müharibəsində - red.) təkcə Ermənistanı məğlub etmədik, biz erməni faşizminin belini qırdıq. Biz erməni xalqını bəd əməllərdən demək olar ki, xilas etdik.”

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında səsləndirib.

”Bəlkə bu acı məğlubiyyət, İkinci Qarabağ müharibəsindəki acı məğlubiyyət onlara dərs olacaq və onlar oturub fikirləşəcəklər ki, bundan sonra bu bölgədə necə yaşasınlar, öz günahlarını etiraf edəcəklər, öz cinayətlərini etiraf edəcəklər, cinayətkarları məsuliyyətə cəlb edəcəklər. Artıq bu proses başlayıb. Ermənistanda əli Azərbaycan xalqının qanına batmış cəlladlar erməni hakimiyyəti tərəfindən cəzalandırılır. Bu, ədalətlidir və bunun davamı olmalıdır”, - deyən dövlətimizin başçısı ancaq bu təqdirdə xalqlar arasında real barışığın ola biləcəyini qeyd edib. Bildirib ki, sülh müqaviləsi imzalana bilər, ancaq əsas məsələ ondadır ki, ictimai müstəvidə barışığa doğru addımlar atılsın, onlardan birincisi ermənilərin öz günahlarını etiraf etməsidir.

Azərbaycan Prezidenti keçmiş məcburi köçkünlərə, həmvətənlərimizə müraciət edərək bildirib ki, icazə olmayan ərazilərə səfər etməsinlər. Bu, olduqca təhlükəlidir. Azərbaycan Prezidenti İlham Əliyev daha sonra qeyd edib ki, şəhərlərin Baş planları təsdiq olunanda şəhərlərdə yaşamış insanların da rəyi nəzərə alınmışdır. ”Şəhərlərin bərpasının təməlqoyma mərasimini də mən keçmiş köçkünlərlə birlikdə həyata keçirmişəm. Biz çox istəyirik ki, otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunsun və buna doğru da gedirik və gedəcəyik”, - deyə dövlətimizin başçısı vurğulayıb.

x x x

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən ”Heydər Əliyev İli” çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən Forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb. Həmçinin Forumda 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edir.

Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərin müzakirəsi nəzərdə tutulur. Dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə edəcəklər.

Forum çərçivəsində Qoşulmama Hərəkatı Media platforması təşəbbüsü də irəli sürüləcək.

Qeyd edək ki, bu günədək çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi Şuşa şəhəri indi də müstəqil Azərbaycanın tarixində ilk dəfədir dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplayır.

# “Dövlət azad, müstəqil mətbuatın inkişafına lazım olan dəstəyi yüksək səviyyədə göstərir”

"İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist, siyasi elmlər doktoru Vüqar Rəhimzadənin yap.org.az-a müsahibəsini ixtisarla təqdim edirik

***- Vüqar müəllim, 22 iyul - Milli Mətbuat Gününü qeyd edirik. Cəmiyyətin güzgüsü olan və missiyasını şərəflə yerinə yetirən milli mətbuatımızın qət etdiyi 148 illik yolu necə ümumiləşdirərdiniz?***

- Öncə bütün həmkarlarımı Milli Mətbuat Günü münasibətilə təbrik edir, onlara cansağlığı, yeni-yeni yaradıcılıq uğurları, dövrün tələblərinə uyğun daim yeniliklər axtarışında, dünya informasiya məkanına inteqrasiya prosesində daha fəal olmağı, ən əsası dövlətçiliyimizin möhkəmləndirilməsinə, milli maraqlarımızın qorunmasına, həqiqətlərimizin təbliğinə töhfələrinin davamlı olmasını arzulayıram.

Təbii ki, həyat yerində durmur, qarşımızda hər zaman yeni-yeni vəzifələr dayanır. Hər bir əlamətdar gün keçilən yolun təhlilini bir zərurət kimi qarşıya qoyur. Milli mətbuatımızın keçdiyi 148 illik yolda hədəflər, vəzifələr yenilənsə də, təkmilləşsə də dəyişməyən, bütün dövrlər üçün aktuallığını qoruyan jurnalistikamızın prinsipləridir. Obyektivlik, qərəzsizlik və vətənpərvərlik kimi prinsipləri fəaliyyətinin önündə saxlayan mətbuatımız ötən dövr ərzində keşməkeşli, eyni zamanda, şərəfli yol keçib.

Artıq üçüncü ildir ki, bayramlarımızı, əlamətdar günləri Zəfər sevincinin fonunda qeyd edirik. Hər zaman qeyd etdiyimiz kimi, dünyaya səs salan şanlı Qələbəmiz ölkəmizin həyatında yeni bir mərhələnin əsasını qoymaqla yanaşı, bayramlarda, önəmli günlərdə arzularımızda da dəyişikliklərə yol açdı. Həqiqətlərimizin təbliği missiyasını uğurla yerinə yetirən mətbuatımıza üç il bundan öncə arzumuz torpaqlarımızın işğaldan azad edilməsi xəbərinin müjdəçisi olmaq idisə, bu gün tamamilə başqa bir arzu, istəklə yaşayır, ona çatmaq üçün səylərimizi artırırıq. Bu gün Qarabağımız, Şərqi Zəngəzurumuz dirçəlir. Bu gün əzəli sahibinə qovuşmuş torpaqlarımıza qayıdış həyata keçirilir. Bu gün Azərbaycanın döyünən ürəyi, türk dünyasının mədəniyyət paytaxtı Şuşa diplomatik mərkəz kimi dünyanın diqqətindədir. Bu gün dünya Azərbaycanın tarixi ədaləti bərpa, beynəlxalq hüquq deyilən məfhumun mövcud olmasını sübut etməsindən bəhs edir. Bugünümüzün reallıqlarını sadalamaqla bitməz. Bu gün Azərbaycan mətbuatı məhz həmin reallıqlara söykənərək yenilənir, təkmilləşir, qarşısına yeni-yeni hədəflər qoyur.

1875-ci il iyulun 22-də böyük mütəfəkkir Həsən bəy Zərdabinin redaktorluğu əsasında ilk nömrəsi işıq üzü görən ”Əkinçi” qəzetinin nəşri ilə bünövrəsi qoyulan və arxada qalan 148 illik yolu uğurla qət edən mətbuatımızın inkişafından bəhs edərkən müstəqillik mərhələsi, daha dəqiq desək, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi tələbi ilə hakimiyyətə qayıdışından sonrakı dövr göz önünə gəlir. Həmin dövrdən başlayaraq mətbu orqanların azad fəaliyyəti, inkişafı yolunda süni manеələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Həmin dövrün ən mühüm addımı mətbuatın üzərindən senzuranın götürülməsi oldu. Bu addım bir daha azad mətbuatın inkişafının dövlətin həyata keçirdiyi humanizm siyasətinin əsasında dayandığını nümayiş etdirdi. Ümummilli Lider mətbuatın cəmiyyətdəki rolunu daim yüksək dəyərləndirirdi. Ulu Öndər Heydər Əliyev demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributların ölkəmizdə bərqərar olmasını gündəlik fəaliyyətinin əsası kimi qəbul edərək, insan hüquq və azadlıqlarının qorunması, cəmiyyətin informasiya tələbatının ödənilməsi kimi aktual məsələləri öndə saxladı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan milli Konstitusiyamızda demokratik cəmiyyətin varlığını şərtləndirən bütün sahələrin inkişafına xidmət edən müddəalar öz əksini tapdı. Eyni zamanda, hər bir sahə üzrə təkmil qanunlar qəbul olundu və onların zamanın tələbinə uyğun olaraq təkmilləşdirilməsi daim diqqətdə saxlanıldı. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli ”Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanı ilə Azərbaycan mətbuatı üzərində senzuranın aradan qaldırılması yeni müstəqil medianın fəaliyyəti üçün geniş imkanlar açdı. Həmin humanist addımdan sonra medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası formalaşdırıldı, redaksiyaların davamlı inkişafı, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görüldü. Dünya informasiya məkanına inteqrasiya istiqamətində mühüm addımlar atıldı. Azərbaycan mətbuatı ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərdi. Ulu Öndərin azad mətbuatın inkişafına xidmət edən addımları davamlılığı ilə diqqətdə oldu. Belə ki, qəzetlərə birdəfəlik yardımlar verildi, ”2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün tədbirlər proqramı” təsdiqləndi. Həmçinin ”Kütləvi informasiya vasitələri haqqında”, ”Məlumat azadlığı haqqında” qanunlar qəbul olundu ki, bunlar da öz növbəsində müstəqil mətbuatın inkişafına böyük dəstək oldu. Ümummilli Liderin humanist addımlarından biri də qəzetlərin ”Azərbaycan” nəşriyyatına borclarının dondurulması idi. Ulu Öndərin 2002-ci ildə ”Jurnalistlərin dostu” mükafatına layiq görülməsi dahi şəxsiyyətin Azərbaycanın 1993-cü ildən başlanan inkişaf yolunda mətbuata göstərdiyi qayğıya verilən dəyərdir. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, 15 mart 2003-cü ildə jurnalistlərin I qurultayında 180-dək aparıcı kütləvi informasiya vasitəsinin təsisçiliyi ilə Azərbaycanda mətbuatın özünütənzimləməsini həyata keçirən qurum-Mətbuat Şurası yaradıldı.



Göründüyü kimi, Ümummilli Lider Heydər Əliyev cəmiyyətin güzgüsü olan mətbuatın hər bir problemi ilə maraqlanmış, onun ictimai fikrə təsir imkanını artırmaq üçün ciddi səylər göstərmişdir. Ulu Öndər Heydər Əliyev jurnalistlərlə görüş ənənəsinin əsasını qoydu. Dahi rəhbər mütəmadi olaraq media nümayəndələri ilə görüşür, onları narahat edən məsələlər ətrafında fikir mübadiləsi aparırdı. Ulu Öndərin ən mühüm çağırışlarından biri bu idi ki, mətbuat obyektiv, qərəzsiz olmalı, həqiqətləri olduğu kimi cəmiyyətə çatdırmalıdır. Ümumilikdə demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributların ölkəmizdə bərqərar olması üçün zəruri addımlar atıldı. Yaradılan möhkəm təməl növbəti uğurlara stimul verdi.

***- Son 20 ildə milli mətbuatın inkişafı istiqamətində atılan addımları necə dəyərləndirirsiniz?***

- Son 20 ilə yaxın dövrdə Ulu Öndər Heydər Əliyevin siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev azad mətbuatın prioritetliyini önə çəkərək bu istiqamətdə zəruri addımlar atır. Bu çağırış əsas yer tutur ki, hüquqi dövləti mətbuatsız təsəvvür etmək mümkün deyil. Eyni zamanda, mətbuat hər bir ölkənin inkişaf səviyyəsinin təqdimatıdır. Bu sahədə qazanılan uğurların miqyasını təsəvvür etmək üçün 2003-cü ildən bugünədək mətbuat sahəsində atılan addımların xronologiyasına diqqət yetirmək kifayətdir. Nəzərə alsaq ki, mətbuat cəmiyyətin güzgüsüdür, bu halda qeyd edilən istiqamətdə atılan addımların təbii ki, ölkənin davamlı inkişafı ilə sıx bağlı olduğu üzə çıxar. Bu dövrdə mətbuatın maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, jurnalist peşəkarlığının və məsuliyyətinin artırılması dövlət siyasətində prioritet istiqamətlərdən birini təşkil edib. 2005-ci ildə dövlət başçısı tərəfindən ”Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında”, ”Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında”, ”Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında” sərəncamların imzalanması jurnalist əməyinə nə qədər böyük dəyər verildiyini təsdiqlədi. Bu dövrdə milli mətbuatımızın 130, 135, 140 və 145 illik yubileyləri dövlətimizin başçısı İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq paytaxt və bölgələrdə yüksək səviyyədə qeyd olundu.

Azərbaycanın adı azad internetin mövcud olduğu ölkələr sırasındadır. İnternet istifadəçilərinin sayı 85 faizdən çoxdur. Mətbuatın inkişafına heç bir məhdudiyyət yoxdur. Yüzlərlə mətbuat orqanı fəaliyyət göstərir. Təqdirəlayiq haldır ki, müasir müstəqil Azərbaycan söz və mətbuat azadlığının inkişaf səviyyəsinə görə ən qabaqcıl yerlərdən birini tutur. Təbii ki, mətbuatımız bu reallıqlara sahib olmaq üçün çətin, eyni zamanda, şərəfli yol keçib. Azərbaycanda media üçün yaradılan şəraitə bəlkə də heç dünyanın inkişaf etmiş ölkələrində belə rast gəlmək mümkün deyil. Təbii ki, qlobal informasiya mühitində ölkə mətbuatı da öz növbəsində fəaliyyətini yeni aktual çağırışlara uyğun qurmalıdır.

Azərbaycanın iqtisadi imkanları artdıqca, kütləvi informasiya vasitələrinə göstərilən dövlət qayğısı da yüksəlir. Bu gün Azərbaycan dövlətinin, xalqının mətbuatdan əsas gözləntiləri informasiya təhlükəsizliyinin, dövlət maraqlarının qorunması, peşə etikasına riayət etmək, obyektivlik, qərəzsizlik prinsipini daim fəaliyyətində əsas götürməkdir. Bu inam ifadə edilir ki, dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxşaxəli, səmərəli siyasətin məntiqi nəticəsi olaraq mətbuatımız daha da saflaşacaq, təkmilləşəcək, peşəkar jurnalistika prinsipləri ilə çalışaraq cəmiyyətin obyektiv informasiya ilə təminatında öz sözünü deyəcək.

***- İnternet resurslarının həyatımızın bir parçasına çevrildiyi hazırkı dövrdə jurnalist peşəkarlığı və məsuliyyəti başlıca amillərdən biridir…***

- Əsassız, fakta söykənməyən informasiyanın yaratdığı problemin geniş şərhə ehtiyacı yoxdur. Dəqiqləşdirilməyən məlumatın informasiya məkanına daxil olması sonda cəmiyyətdə mediaya inamsızlıq mühitinin yaranmasına səbəb olur. Bu baxımdan Medianın İnkişafı Agentliyinin yeni keyfiyyətdə informasiya mühiti formalaşdırmaq istəyi və buna nail olmaq üçün ortaya qoyduğu model yüksək dəyərləndirilir. Bu çağırış hər zaman günümüzün tələbidir: ”Rəqabətli media mühitinin yaradılması əsas tələb olmalıdır”. Təbii ki, bu çağırış jurnalist peşəkarlığının artırılmasını aktuallaşdırır. Şübhəsiz, Media Reyestrinin yaradılması və vahid jurnalist vəsiqəsinin verilməsi bu sahədə mövcud olan neqativ halların aradan qaldırılmasını təmin edəcək. Əsas məsələ internetdən istifadə zamanı informasiya məsuliyyətini dərindən dərk etməkdir.

***- Vüqar müəllim, jurnalist peşəkarlığının artırılmasının prioritetliyi fonunda gənc kadrlara diqqət və qayğını necə dəyərləndirirsiniz?***

- Fəaliyyətində mətbuatın əsas prinsipləri olan obyektivliyi, qərəzsizliyi, ən əsası vətənpərvərlik və milli şüuru əsas tutan qələm sahibi bu sıraya daxil olan gənc nəslə də eyni prinsiplərlə yanaşıb dəstək göstərməklə jurnalistikanın inkişaf səviyyəsinə, həmçinin gənc yazarın mətbuatın sirli-sehrli aləminə özünəməxsus şəkildə daxil olmasına yardımçı ola bilər. Dövlət azad, müstəqil mətbuatın inkişafına lazım olan dəstəyi yüksək səviyyədə göstərir. Bu işdə çalışdıqları mətbu orqanlarda illərini xərcləyən, böyük təcrübəyə malik olan insanların da üzərinə böyük məsuliyyət düşür. İnformasiya cəmiyyətinin bərqərar olması ilə əlaqəli proseslər sübut edir ki, müasirlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə sivilizasiyanın bütövlükdə simasını dəyişdirə bilər. Məhz bu keyfiyyətlərə söykənərək belə bir inam ifadə olunur ki, hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində həllini tapacaq. Günbəgün gəncləşən, müasirləşən ölkəmizdə gəncliyin inkişafına yaradılan şərait, göstərilən dəstək imzalanan Fərman və sərəncamlardan, Dövlət proqramlarından da aydın görünür. Hesab edirəm ki, mətbuatın ictimai fikrə təsir imkanlarının genişliyini, cəmiyyətin güzgüsü funksiyasını yerinə yetirdiyini nəzərə alsaq, gənc jurnalistlər müasir dövrün imkanlarından səmərəli istifadə etməklə bu işə öz töhfələrini verə bilərlər. ”İki sahil” qəzeti olaraq gənclərə öz potensial imkanlarını ortaya qoymaları üçün lazım olan dəstəyi göstəririk. Zəngin təcrübəyə söykənərək müasirləşməni, yeniləşməni daim fəaliyyətimizin əsas istiqaməti kimi qəbul edir, bu yöndə mühüm addımlar atırıq. Hər bir yenilik, islahat inkişaf, tərəqqi olmaqla yanaşı, sabahımız üçün yeni prioritetlərin müəyyənləşdirilməsi üçün stimulverici amildir.

***- Sizcə, çoxsaylı mətbu orqanlar arasında özünəməxsusluğu qazanmaq üçün hansı amillərə diqqət yetirmək tələb olunur?***

- Obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi və sair kimi amillər medianın inkişafını şərtləndirən başlıca faktorlar olmalıdır. Əvvəldə də qeyd etdiyim kimi, bunun üçün tutduğu yola, əqidəyə sadiq olmaq, daim oxucu auditoriyasını genişləndirmək, onların informasiya tələbatını dolğun şəkildə təmin etmək, ən başlıcası həqiqəti özündə ifadə edən informasiyanı çatdırmaq məqsədilə daim axtarışda olmaq, hər günü informasiyalarla daha rəngarəng etmək üçün səyləri artırmaq, əldə olunanlarla kifayətlənməmək gərəkdir. Cənab Prezidentimizin qeyd etdiyi kimi, daim irəliyə baxmalıyıq.

***- Təbii ki, 148 illik yolu bir müsahibədə tam əhatə etmək mümkün deyil. Azərbaycan mətbuatının hazırkı inkişaf modelini necə təqdim edərdiniz?***

- Dövlət azad mətbuatın inkişafı üçün zəruri olan bütün addımları atır. Dəfələrlə qeyd etdiyimiz kimi, mətbuat daim inkişafda olan, yeniliyi, təkmilləşməni əks etdirən sahədir. Təbii ki, bugünkü Azərbaycanı müstəqilliyimizin bərpasının ilk illərinin Azərbaycanı ilə müqayisə etmək mümkünsüzdür. Qalib Azərbaycanın mətbuatından bəhs ediriksə, artıq postmünaqişə dövrünün bütün reallıqlarının həyata keçirilməsində və qəbulunda fəal iştirak etməli, yaradılan imkanlardan maksimum bəhrələnməliyik. Bugünkü mətbuatımız təkmil modeli təqdim edir. Yeni texnologiyaların yaratdığı imkanlardan maksimum istifadə edilir. Bu gün mövqeyindən asılı olmayaraq bütün mətbu orqanlarda işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri işıqlandırılır. Böyük Qayıdış proqramından irəli gələn vəzifələrin uğurlu icrası geniş təbliğ edilir. Tezliklə yazılı və elektron KİV-lərimiz bu müjdəni verəcək ki, soydaşlarımızın qayıdışı tam şəkildə başa çatdı. Dövlətimizin atdığı addımların əsasında məhz bu hədəf dayanır.

Artıq ötən ilin dekabr ayında, Prezident İlham Əliyevin doğum günündə Qərbi Azərbaycandan olan ziyalılarla görüşdə bu hədəf açıqlandı: Biz Qərbi Azərbaycana qayıdacağıq! Artıq Qərbi Azərbaycana Qayıdış Konsepsiyası hazırlanıb. Hədəfə qısa zamanda nail olmaq üçün sistemli şəkildə addımlar atılır.

Milli Mətbuat Günündə bu arzunu ifadə etmək istərdim ki, tezliklə həmkarlarım Qərbi Azərbaycana qayıdışın müjdəçiləri olsunlar! Dövlətimiz tarixi ədalətə söykənərək bu hədəfi qarşıya qoyub. Bir sözlə, uğurlarımız davamlıdır. Yeni-yeni hədəflər müəyyənləşdirilir. Mətbuatımız üzərinə düşən missiyanı layiqincə yerinə yetirmək üçün bütün qüvvə və bacarığını səfərbər edir. Düşünürəm ki, Milli Mətbuat Günündə hər bir mətbu orqan, hər bir media nümayəndəsi fəaliyyəti ilə bağlı özünə hesabat verməlidir. Bu hesabatlarımızın dövlətçiliyimizin möhkəmləndirilməsinə verdiyimiz töhfələrlə daha zəngin olması arzusu ilə bir daha həmkarlarımı təbrik edirəm.

# 1990-cı il 22 iyul: azərbaycanlılara bəxş olunan şanlı tarix

***Azərbaycanın dövlətçilik tarixində çox mühüm əhəmiyyətə malik günlərdən biri 1990-cı ilin 22 iyuludur. Həmin günü bütün Azərbaycan, xüsusilə də naxçıvanlılar çox yaxşı xatırlayırlar: Naxçıvan şəhərinin mərkəzi hissəsi, 80 min nəfərdən çox adamın toplaşdığı Azadlıq meydanı izdihama qərq olmuşdu. Qədim Naxçıvan Moskvadan Bakıya, oradan da doğma Naxçıvana qayıdan Heydər Əliyevi qarşılayırdı. Muxtar respublikanın hər yerindən Heydər Əliyevi görməyə, qarşılamağa gələnlər vardı. Bu torpağın əziz, doğma övladı kimi Vətəninə qayıtmış Heydər Əliyev ilə görüşə gələnlər ona dərin ehtiramlarını bildirir, böyük rəhbəri məhəbbət və həsrətlə bağrına basır, qucaqlayıb öpür, hətta kövrəlib ağlayırdılar.***

Həmin gündən etibarən Ulu Öndər Naxçıvanın qədim məhəlləsində-bacısı evində yaşamağa başladı. Bu kiçik məhəlləyə, evə gələnlərin də ardı-arası kəsilmirdi. İnsanlar Heydər Əliyevin doğma torpağa Qayıdışını öz Qurtuluşları hesab edirdilər. Dünənədək səksəkə içərisində olan, artıq blokadanın ilkin acılarını yaşayan naxçıvanlılar bu Qayıdışı bir ümid işığı hesab edir və bu işığa tərəf axışırdılar. Bu işıq isə yaxın gələcəkdə həm Naxçıvanın qurtuluşuna, həm də bütövlükdə Azərbaycanın xilasına səbəb olacaqdı. Bu işıq qısa zaman kəsiyində bütün Azərbaycanı nura boyayacaqdı. Naxçıvandan başlanan mücadilə, mübarizə bütün xalqı nicat yoluna çıxaracaqdı. Ulu Öndər ölkəyə rəhbərliyə dəvət olunması ilə bütövlükdə böyük bir xalqın xilaskarına çevriləcəkdi...



## Ümummilli Lider Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi...

90-cı illərdə ölkəyə rəhbərlik edənlərin siyasi səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu Azərbaycanın mövcudluğunu, sözün həqiqi mənasında, sual altında qoymuşdu. Xaos, anarxiya, özbaşınalıq, torpaqlarımızın işğal olunması xalqımıza müstəqilliyin sevincini yaşamaq imkanı verməmişdi. Belə çətin və mürəkkəb bir dövrdə Azərbaycan xalqı üzünü Ulu Öndər Heydər Əliyevə tutaraq öz varlığını təmin etdi.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Dahi şəxsiyyətin müdrik siyasətinin nəticəsi idi ki, ölkəmiz bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən xilas oldu, müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhran aradan qaldırıldı və inkişafın təməli qoyuldu.

1990-cı ilin yanvar ayında Azərbaycanın ayrı-ayrı rayonlarının, eləcə də Naxçıvanın sərhədlərində ermənilər tərəfindən münaqişələr törədilirdi. Yanvar ayının 18-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki kəndi işğal olunmuşdu. Ermənilərin Sədərək istiqamətində mütəmadi hücumları başlamışdı və vəziyyət gündən-günə gərginləşirdi. Yanvarın 20-də Bakıda törədilən faciə ilə Naxçıvanın sərhədlərində münaqişələrin başlanmasının üst-üstə düşməsi isə ermənilərin havadarlarının əvvəlcədən hazırladıqları böyük plan üzrə cərəyan edirdi. Belə ki, burada məqsəd diqqətin Bakı hadisələrinə yönəlməsi fonunda Naxçıvan əhalisi arasında ümidsizlik yaradaraq bölgənin boşaldılması və erməni işğalı üçün şəraitin yaradılması idi. Digər tərəfdən isə Naxçıvanı ölkənin paytaxtı ilə birləşdirən yollarda da ermənilər tərəfindən münaqişə törədilir, Bakı-Naxçıvan qatarları dayandırılır, günlərlə işləmir, maşinistlərə qarşı vəhşiliklər edilirdi. Naxçıvan blokada vəziyyətinə salınırdı.



Bütün bu əməllərin arxasında kimin olduğu, kimin planı və gücü ilə həyata keçirilməsi 20 Yanvar hadisələrindən sonra Naxçıvana qayıdan və burada yaşayan Ulu Öndərə gün kimi aydın idi. Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

Beləliklə, Ulu Öndər 1990-cı ildə Naxçıvana qayıtmasaydı, Naxçıvan indi yox idi. Qədim diyar həmin illərin qurbanı olmuş, Qarabağ kimi işğal edilmiş, naxçıvanlılar isə aclıq-səfalət içərisində məhv olmuşdular. Heydər Əliyevin Naxçıvana gəlməsi ermənilər tərəfindən sərhədlərində müharibə aparılan və blokadaya salınan diyarın xilası oldu. Və son 30 ildə Naxçıvanın inkişafı da 1990-cı illərdə Ulu Öndər tərəfindən həyata keçirilən və gələcəyə hesablanmış tədbirlərin nəticəsində reallaşmışdır. Bununla əlaqədar Prezident cənab İlham Əliyevin də dəyərli fikirlərini xatırlamaq yerinə düşər: "Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə Ulu Öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar".



## Müstəqilliyimizi xilas edən Böyük Şəxsiyyət

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdiklərimiz canlandıqca düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonrakı dövrə nəzər salarkən ona uzanan əlləri, gözü götürməyənlərin təxribatlarını gördə isə belə bir qənaətə gəlirsən ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq.

Zaman sübut etdi ki, Ümummilli Lider Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.

Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı.

O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.



## Qayıdış inkişafın başlanğıcı oldu

Görkəmli dövlət xadiminin ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə mühüm işlər görüldü. Qısa müddətdə daxili sabitlik bərpa edildi, cəbhədə atəşkəsə nail olundu, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində potensial baza yaradıldı. Eyni zamanda iqtisadi sahədə mühüm addımlar atıldı, xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı, nəticədə, Azərbaycanın iqtisadi inkişafını şərtləndirən layihələrin həyata keçirilməsinə başlanıldı. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Bununla da Azərbaycanın bugünkü və gələcək uğurlarının möhkəm təməli qoyuldu. Ümumilikdə, Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutdu, beynəlxalq təşkilatlarda uğurla təmsil olundu, dünyada etibarlı tərəfdaş kimi tanındı, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirdi.

Bununla bərabər, ölkəmizin beynəlxalq təşkilatlarla əlaqəsi təmin olundu, müasir hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Nəticədə, çox qısa müddətdə müstəqil Azərbaycan özünün sosial, iqtisadi, siyasi və mədəni həyatında ciddi uğurlar qazandı.

Ulu Öndər Heydər Əliyevin parlaq ideyalarını layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev siyasi fəaliyyətini ölkəmizin heç bir güc mərkəzindən asılı olmayaraq, müstəqil siyasət aparmasına, hər bir sahədə xalqın mənafeyinin qorunmasına həsr etmişdir. Məhz bunun nəticəsidir ki, Azərbaycan ötən dövrdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, TANAP, TAP kimi nəhəng iqtisadi layihələrlə bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verir. Eyni zamanda dövlət başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib.

Azərbaycan iqtisadiyyatı artıq tam mənası ilə şaxələndirilmiş iqtisadiyyatdır. Dünyanı bürüyən qlobal böhrana baxmayaraq, Azərbaycanın uğurlu inkişafı təmin edilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş və ciddi uğurlara imza atmışdır. Hazırda BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq aparılır. 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Ölkə başçısının təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunan Zirvə görüşləri, eləcə də BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, həmçinin Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM) və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi ölkəmizə və dövlətimizin başçısına beynəlxalq arenada olan böyük hörmətin, nüfuzun göstəricisidir.

## Qurtuluşdan Zəfərə gedən yol

1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə qayıdışı ölkəmizin xilası, xalqın qurtuluşu, müstəqilliyimizin qorunması ilə yanaşı, həm də işğal altında olan torpaqlarımızın bir gün geri qaytarılması uğrunda mübarizənin başlanğıcı oldu.

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycanımız etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.





Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizidir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu.

Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 20 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir.

Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir. Qürur duyuruq ki, 33 il əvvəlki Qayıdış xalqımıza Qurtuluş, müstəqillik, ərazi bütövlüyü, əminamanlıq və bugünkü inkişafı bəxş edib.

## Bir günün iki bayramı

22 iyul ölkəmizdə iki bayram qeyd olunur. Bunlardan birincisi Ulu Öndərin doğma Vətəninə Qayıdışı, ikincisi isə Milli Mətbuat və Jurnalistika Günüdür. Bütün xalq həyatında xoşbəxt günlərin başlanğıcı olan 22 iyulu-Böyük Heydər Əliyevin Naxçıvana Qayıdışını bayram edir. Jurnalistlər isə həmin gün iki bayram sevinci yaşayırlar. Çünki həmin gün həm də onların peşə bayramıdır.

Ulu Öndər hakimiyyətdə olduğu bütün illərdə jurnalistlərin dostu olub. Onların azad fəaliyyəti, müstəqilliyi üçün münbit şərait yaradıb. Senzuranı aradan qaldırıb. Azad fikrin, müstəqil düşüncənin inkişafına təkan verib. Ulu Öndər jurnalistlərin həyat tərzinin, maddi vəziyyətinin yaxşılaşması üçün ardıcıl tədbirlər həyata keçirib. Onların əməyinin qiymətləndirilməsini, mükafatlandırılmasını, fəxri adlara layiq görülməsini təmin edib. Sonrakı dövrdə isə dövlətimizin başçısı bu ənənələri davam etdirib, eyni zamanda jurnalistlərin mənzil-məişət məsələlərinin də həlli üçün xüsusi addım atıb. Odur ki, bütün ölkə jurnalistlərinin rifah halı ildən-ilə yaxşılaşıb.

Ən başlıcası isə dövlətimizin başçısı jurnalistlərə torpaqlarımızın işğaldan azad olunması, Zəfərdən yazmaq kimi qürurlu bir mövzu verib. Bəli, biz xoşbəxt jurnalistlərik ki, 30 il işğal altında qalan torpaqlarımızın azad edilməsindən yaza, Böyük Zəfərimizdən bəhs edə bildik. Bu sevinci, qüruru yaşaya-yaşaya yazmaq böyük xoşbəxtlikdir.

Bütün bunlar üçün Ulu Öndər Heydər Əliyevə borcluyuq. Çünki Onun 1990-cı ildə Naxçıvana Qayıdışı, 1993-cü ildə ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi xalqımızın taleyində Qurtuluş yolunun başlanğıcı oldu. 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması barədə imzalanan Sərəncamda deyilir: Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Bəli, Heydər Əliyev ona görə Azərbaycanın rəmzinə çevrilmişdir ki, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Azərbyacan xalqı bu təntənəni Onun siyasi və mənəvi varisi ilə yaşayır. Yaşadıqca da qürur duyur...

***Mətanət MƏMMƏDOVA***

# 148 yaşlı "Əkinçi"

## Əsrlərə qovuşacaq tarix - 22 iyul 1875-ci il

1875-ci ilin 22 iyul tarixi. Azərbaycanın ictimai-mədəni həyatında daha bir təqvim tarixə qovuşdu. Milli mətbuatımızın təməlini qoyan "Əkinçi" qəzetinin ilk nömrəsi nəşr olundu və bu ölkə həyatında böyük əks-səda doğurdu. Qəzetin naşiri, redaktoru, korrektoru Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas-alim Həsən bəy Zərdabi idi. Belə bir dövrdə qəzetin təməlini qoymaq böyük ziyalılıq, vətənpərvərlik tələb edirdi: iki ali dəyəri özündə birləşdirən Həsən bəy Zərdabi əsrlərə qovuşacaq bir yeniliyə, ilkə imza atmış oldu. Əlbəttə ki, hünər, cəsarət tələb edən bir zamadan təqibləri gözünə almayan ziyalının görkəmli simalar məsləkdaşı, silahdaşı oldu. Bu adlar sırasında imzası Azərbaycan ictimai-mədəni mühitinə yaxşı tanış olan insanlar - Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov kimi simalar var idi. Dövrünün görkəmli maarifçiləri olan bu və ya digər şəxsiyyətlər "Əkinçi" qəzetinin səhifələrində maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai-siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. Azərbaycan publisisti, pedaqoq, maarifçi-demokrat, təbiətşünas alim Zərdabi bütün həyatını xalqının maariflənməsinə, onun elmi biliklərə yiyələnməsinə həsr etmişdir. O, Xeyriyyə Cəmiyyəti, teatr və müəllimlik yolu ilə xidmət etdiyi xalqa daha çox xidmət etmənin yollarını axtarır və bunu qəzetin nəşrində görürdü. "Bizim Cəmiyyəti Xeyriyyə bina tutmadığından teatr təşkil etdiyimiz salonun boş qaldığı zaman anladım ki, müsəlman qardaşlarımızı bir yerə toplayıb məktəblər açdıraraq küçədəki uşaqları oxutmaq münkün deyildir. Elmsiz bu dövrdə yaşamaq münkün deyildir. Nə etməli? Hər kəsi çağırıram gəlmirlər, göstərirəm görmürlər, deyirəm anlamırlar. Sonunda başa düşdüm ki, səs-küy salaraq, məcburi başa salmaqdan başqa çarəm yoxdur. Mütləq bu izah etdiklərimi bir gün başa düşən olacaqdır. Axan bir suyun altına nə qədər sərt daş qoyursan qoy, zamanla o daş əriyib yox olacaqdır. Əgər elədirsə, doğru söz də bir gün başa düşüləcəkdir. Onun üçün mütləq qəzet nəşr etdirmək gərəkdir. Hər il qəzet oxuyanlardan 10 nəfər anlasa, onların sayı hər il artacaqdır. Suyun önünü kəsən o bənd sonunda dayana bilməyib yıxılacaqdır!". Beləliklə, o bu məqsədinə çatmaq üçün israrlı olaraq mücadilə edir. Təbii ki, Həsən bəy Zərdabinin gördüyü işlərin hamısı millətin tərəqqisi naminə idi. Hər addımında vətənpərvərlik özünün biruzə verirdi. Əlbəttə ki, mətbuatın olması o dövr üçün zəruri idi. O ana dilində qəzet nəşr etmək fikrinə hələ Qubada, mahal məhkəməsinin katibi işlədiyi dövrdə gəlmişdi. Böyük Azərbaycan maarifiçisi Abbasqulu bəy Bakıxanovun qardaşı tələb olunan maliyyə xərclərini öz üzərinə götürürdü.

Əlbəttə ki, çar Rusiyasında 1865-ci ildə qəbul olunmuş "Senzura haqqında qəti qanun"dan sonra mətbuatda nəşrin qeydə alınması və çapı olduqca çətin iş idi. Həsən bəy Zərdabi qəzet çıxarmaq fikrinə 1868-ci ildə düşmüşdü. Lakin çar idarələrindəki süründürməçilik, hərc-mərclik Zərdabinin qəzet nəşr etmək arzusunu uzun müddət çin olmağa qoymadı. Qəzetin nəşrinə icazə alma 7 il çəkdi. Zərdabinin rəsmi orqanlara ilk müraciəti isə 1873-cü ilin aprel ayında oldu. Qəzetin belə adlandırılması isə çar rejiminin fikrini qəzetin daşıyacağı əsas ideya istiqamətindən yayındırmaq məqsədi güdürdü. Qəzetin nəşrinə 1875-ci ildə icazə verildi və iyul ayının 22-də "Əkinçi"nin ilk sayı işıq üzü gördü. Bu tarixdən etibarən Azərbaycanda milli dövri mətbuatın əsası qoyuldu. Cəhalətə və mövhumata ağır zərbə vurmaq, xalqa maarifçilik aşılamaq, ana dilində qəzet oxumaq missiyasını üzərinə götürən Zərdabinin məsləkdaşları qarşılarına olduqca məsuliyyətli vəzifə qoydular. "Əkinçi"nin ilk nömrəsində Zərdabi "Daxiliyyə", "Əkin və ziraət", "Elmi xəbərlər", "Tazə xəbərlər" bölmələrini olacağının yazırdı. Həsən bəy Zərdabi yazırdı:"Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun" və ya "Xalqın hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün".

Bir tribunaya çevrilən "Əkinçi" qəzetində elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar yer alırdı. Canlı xalq dilinə əsaslanan qəzet sadə və anlaşıqlı bir dildə oxucularının görüşünə gəlirdi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" xalqı cəhalətdən, fanatizmdən uzaqlaşdırmaq, onlara hüquqlarını anlatmaq, xalqın savadlanmasına kömək məqsədi ilə misilsiz işlər görürdü. Məlum olduğu kimi, qəzetin cəmi 56 sayı işıq üzü gördü və qəzet ayda iki dəfə 300-400 tirajla nəşr edildi. Cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyan "Əkinçi" qəzeti Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biridir.

### MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ, GERİLİYİ, MÖVHUMATI AMANSIZ SATİRA ATƏŞİNƏ TUTULDU

1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə

baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan nəşr edilməşdi. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə, birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən "Bakinski listok"




olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet "Bakinskiye izvestiya" nəşrə başlamışdır.

Çox keçmir ki, 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə, o, çapını dayandırır. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı işıq üzü görür. XX əsrdə isə, Azərbaycan dilində çıxan qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdu. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri danılmazdır. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı.

Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" işıq üzü gördü. Mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Bütün təqib və təzyiqlərə baxmayaraq, "Molla Nəsrəddin"in haqq səsi, çox keçmədən, Qafqazın hüdudlarını aşıb Rusiyada, türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidildi.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolunu qeyd etməliyik. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin dahi Üzeyir bəy Hacıbəyli tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir.

Azərbaycan mətbuatının xronoloji ardıcıllığına nəzər salsaq görərik ki, 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ildə "Maarif" və "Qırmızı günəş", 1923-cü ildə "Gənc pioner", 1927-ci ildə "Pioner" jurnalları, "Azərbaycan pioneri" qəzeti və s. mətbuat orqanları nəşr edilir. 1923-cü il ildə Bakıda Şərq qadınlarının, xüsusilə, Azərbaycan qadınlarını ictimai-siyasi həyata alışdırmaq məqsədilə aylıq, ədəbi, ictimai və siyasi jurnal olan "Şərq qadını" nəşr olunub. 1938-ci ildən "Şərq qadını", "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başlayıb. 1934-cü il sentyabrın 2-də "Kommunist maarifi" qəzeti nəşrə başladı. 1938-ci ildə adı dəyişdirilərək, "Müəllim qəzeti" adlandırıldı. Sonrakı illərdə "Ədəbiyyat", "Azərbaycan pioneri", "Kirpi" jurnalı, "Bakı" və s. qəzetləri meydana gəldi.

### MƏTBUATIN İNKİŞAFINDA DÖNÜŞ

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin milli mətbuata olan münasibəti və qayğısı nəticəsində formalaşma və inkişaf prosesində bir sıra təbii və süni maneələrlə üzləşmiş azad, demokratik mətbuatımız cəmiyyətin operativ, obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. "Jurnalistlərin dostu" adını qazanmış Ulu Öndər Heydər Əliyev, ölkəmiz müharibə şəraitində yaşasa da, böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

### "BÜTÖVLÜKDƏ, SÖZ AZADLIĞI HƏR BİR ÖLKƏ ÜÇÜN, ÖLKƏNİN İNKİŞAFI ÜÇÜN ƏN VACİB OLAN MƏSƏLƏLƏRDƏN BİRİDİR"

Bu gün hərtərəfli inkişaf edən Azərbaycanın inkişaf dinamikası milli informasiya resurslarından da yan keçməyib, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırıb və rəqabət qabiliyyətini yüksəldib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Dövlət başçısı İlham Əliyevin səyləri ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətdir. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə, təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb etmiş oldu. Əgər bu gün mətbuata göstərilən yüksək diqqət və qayğıdan söz açırıqsa, jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılmasını da qeyd etməliyik. Dövlət başçısının "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 2010-cu il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün yaşayış binasının tikilməsi dövlətimizin yüksək diqqət və qayğısının əyani təsdiqidir. Jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olundu. Daha sonra dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna maliyyə vəsaitinin ayrılması nəticəsində 255 mənzilli ikinci bir bina da istifadəyə verildi. 2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, dövlətimizin başçısı, həmçinin, üçüncü binanın təməlini qoydu. Həmin gün Azərbaycan Prezidentinin Sərəncamı ilə üçüncü binanın tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 5 milyon manat ayrıldı. Dövlətimizin başçısının daha bir Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı. Bütün bunların nəticəsidir ki, Prezident İlham Əliyev 2017-ci ildə də "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

Bütün bunlar göstərir ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bu Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist əməyinə verdiyi yüksək qiymətin göstəricisidir. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır. Belə ki, bu gün Azərbaycanda yüzlərlə media orqanı fəaliyyət göstərir. Yüzlərlə qəzetin nəşri vasitəsilə dünyada gedən bütün proseslər sərbəst şəkildə diqqətə çatdırılır.

Bu gün artıq mətbuatımızın 148-ci ildönümünü qeyd edirik. Mətbuat Günü təkcə jurnalistlərin yox, bütövlükdə, cəmiyyətimizin bayramıdır. Çünki azad söz azad cəmiyyətin təməl daşıdır. Böyük bir tarixi yol keçən milli mətbuatımızın xalqımızın həyatında çox böyük rolu var.

***Zümrüd BAYRAMOVA***

# Radikal müxalifətin "bazarkomu" kimdir?

*Və ya müxalifət bu barədə nə düşünür?*




AZƏRBAYCAN XALQ CƏBHƏSİ PARTİYASI
AZERBAIJAN POPULAR FRONT PARTY
Azərbaycan, Bakı, tel.: (99450) 3123230, www.axcp.az; e-mail: info@axcp.az

№ 08/06 05 fevral 2016-cı il

ARAYIŞ

Verilir, 11 mart 1985-ci il təvəllüdlü [illegible] oğluna, ondan ötrü ki, o, həqiqətən 12 may 2014-cü il tarixdən Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvüdür və hazırda partiyanın Nizami rayon şöbəsində qeydiyyatdadır.

[illegible] partiyaya üzv olduğu müddətdə fəallığı ilə seçilib, tədbirlərdə yaxından iştirak edib.

Arayış tələb olunan yerə təqdim olunmaq üçün verilir və qeyd olunanların nəzərə alınması xahiş olunur.

AXCP təşkilat şöbəsinin müdiri: [illegible]



***Zaman-zaman AXCP sədri Əli Kərimlinin təsiri altında baş tutan "Milli Şura"nın hay-küyçülərinin bir sıra maraqlarla yanaşı, mühacir biznesinə də xidmət etdiyi kimsəyə sirr deyil. Məhz şəxsi mənfəətlərini artırmaqdan ötrü xarici ölkələrə köç etmək istəyənlərin arzularını reallaşdıracağını vəd edən Ə.Kərimli həmin insanlar qarşısında bir şərt qoyur - toplantılara, mitinqlərə gəl, şəkil çəkdir, polislə mübahisə et, təxribatçı hallara rəvac ver və Şengen vizası cibindədir!***

### Əli Kərimli isə bu bazarın bazarkomu, daha dəqiq desək, baş dəllalı rolunda çıxış edir...

Beləliklə, ilk nəzərə çarpan amil budur ki, uzağı 1000-1200 nəfərin yığışdığı və aksiyanın keçirildiyi məkanın dolmadığı bir yerdə istər Ə.Kərimlinin, istərsə də yan-yörəsindəki adamların hakimiyyətə qarşı etdikləri çıxışları arxasında dayanan əsas məsələ mühacir biznesində daha çox sifarişçi əldə edib, onlardan maddi gəlirlər əldə etməkdir. Yəni, "Milli Şura"nın mitinqləri siyasi deyil, bazar məqsədi güdür. Ə.Kərimli isə bu bazarın bazarkomu, daha dəqiq desək, baş dəllalı rolunda çıxış edir və onu da qeyd etmək yerinə düşərdi ki, bu kimi faktları yalnız ictimai-siyasi hadisələri izləyərək, onları təhlil edən jurnalistlər deyil, elə müxalifət partiyalarına sədrlik edən şəxslər də deyirlər.

### MDHP sədri Fərəc Quliyev: "Dəfələrlə göstərilib ki, konkret hansı partiya sədrləri nə qədər pulun müqabilində saxta üzvlük vəsiqələri düzəldir, saxta arayışlar verirlər"

Misal üçün, Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri, deputat Fərəc Quliyev sözügedən məsələ ilə bağlı mətbuata açıqlamasında deyib ki, əslində, mühacir biznesi vasitəsilə maddi gəlir əldə edən radikal müxalifət partiyalarının sədrləri bir çox hallarda insanları aldatmaqla da məşğuldurlar. Daha doğrusu, ortada dələduzluq faktları da var.

"Bir insan mitinqə gəlib şəkil çəkdirməklə xaricə gedə bilməz" - deyə qeyd edən MDHP sədri sözlərinə əlavə olaraq deyib ki, ora (hər hansı Qərb ölkəsinə-red.) gedənləri kamplarda yerləşdirəndə hansı təşkilata üzv olmaları barədə arayışlar və ya onların biletləri istənilir: "İndiyə qədər dəfələrlə mətbuatda göstərilib ki, konkret hansı partiya sədrləri nə qədər pulun müqabilində saxta üzvlük vəsiqələri düzəldir, saxta arayışlar verirlər ".

Müxalifətçi deputata görə, məlum partiya sədrləri var ki, hansı işlərlə məşğul olduqları göz önündədir. O cümlədən, belə insanların getmələrinə saxta yollarla şəraitlər yaradan və özlərini müxalifətin "lideri" adlandıran kəslər bu işdə əsas günahkar hesab edilməlidirlər: "Mitinqlər də məqsədli şəkildə keçirilir. Orada bir müddət iştirak edib, sonradan ölkəni tərk edib, xaricdə ölkəmiz əleyhinə fəaliyyət göstərənlər var. Onlar milli maraqlarını, dövlətini yaxşı bir həyata dəyişməkdə maraqlıdırlar".

### "Onları ifşa etmək mümkündürsə, buna laqeyd yanaşmaq doğru deyil"

"Azərbaycan mübarizə aparan bir ölkədir" deyən F.Quliyev fikirlərinə əlavə olaraq xatırladıb ki, Aprel Müharibəsi vaxtı kənardan çoxsaylı insanlarımız, hətta təhsillərini yarımçıq qoyub döyüşmək üçün gələnlər oldu. Bu baxımdan, ölkənin imicinə xaricdən zərbə vuranlar qədər onların gedişinə şərait yaradanlar günahkardır: "O şəraiti də partiya sədrləri saxta arayışlar verməklə yaradırlar. Bunu artıq sistem halına salıblar. Onları ifşa etmək mümkündürsə, buna laqeyd yanaşmaq doğru deyil. Belə olanda digərlərinin əl-ayaqları açılır. Hesab edirəm ki, Baş Prokurorluq da daxil olmaqla, hüquq-mühafizə orqanları bu məsələlərdə yarımçıq iş görməli deyillər. Belə şəxslər mütləq cəzalandırılmalıdır. Hətta xaricə gedib, özlərini erməni kimi təqdim etməkdən çəkinməyənlər də var. Belə faktlar da var. "Hansısa bir ölkə bizi qınayar" kimi məsələ ortaya qoymaq lazım deyil. Prinsipial mövqe nümayiş etdirmək lazımdır. Ölkənin maraqlarından üstünü yoxdur. Hüquq-mühafizə orqanlarının bundan sonra bu məsələlərin üstündə ciddi şəkildə durmağının tərəfdarıyam".

Göründüyü kimi, MDHP sədri, deputat F.Quliyev ortada konkret ad çəkməsə də, fakt budur ki, mühacir biznesi ilə məşğul olan AXCP sədri Ə.Kərimli və sairləri bilavasitə cinayət əməlinə yol vermiş olurlar və bunun qarşısını almaq, artıq bir zərurətə çevrilib.

### "Ağ Partiya" sədri Tural Abbaslı: "Belə halların qarşısı alınmalı və insan taleləri ilə alver edən istər siyasi, istər ictimai xadimlər cəzalandırılmalıdır"

Onu da qeyd edək ki, ortada konkret cinayət halının olmasını yalnız MDHP sədri F.Quliyev deyil, eyni zamanda, digər müxalifətçi partiya sədrləri də etiraf edirlər. Misal üçün, sabiq müsavatçı funksioner, "Ağ partiya" sədri Tural Abbaslı da belə düşünür ki, saxta yollarla mühacirətə gedənlərin əsas yardımçıları radikal düşərgənin "liderləridir".

"Artıq heç kəsə sirr deyil ki, mühacirətə saxta yolla gedən bir çoxları getdikləri dövlətlərin aidiyyəti qurumlarına rəsmi sənədlər təqdim edirlər" - deyən T.Abbaslıya görə, adətən, bu sənədlər saxta və pul qarşılığında əldə edilmiş sənədlər olur: "Belə halların qarşısı alınmalı və insan taleləri ilə alver edən istər siyasi, istər ictimai xadimlər cəzalandırılmalıdır".

Nəticə olaraq isə belə qənaətə gəlmək olar ki, bu gün AXCP sədri Ə.Kərimlinin "Milli Şura"nın adı altında maddi maraqlarını sözügedən biznesini inkişaf etdirirsə, bu faktın özü hüquqi olaraq qiymətləndirilməlidir. Əks halda, bu bazarın bazarkomu, yaxud baş dəllalı öz biznes şəbəkəsini daha da genişləndirib, böyük cinayətlərə əl ata bilər. Xüsusilə, Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzu artıqca, Ə.Kərimlinin iştahası izafi şəkildə çoxalır. Ona görə də, mühacir bazarının bazarkomunun və baş dəllalının həmin iştahasını vaxtında kəsmək lazımdır

***Afət Tahirqızı***



# Bizim günümüz...

MƏTANƏT

**365 gün hər kəsin peşə bayramından yazdıq. Təbrik etdik, işlərində uğurlar arzuladıq. Budur, bu da bizim günümüz, gəlib çıxdı. "Hamıdan yazaq, özümüzdən yox?",-deyib başlayırıq yazmağa. Bu dəfə də özümüzdən yazırıq. Milli Mətbuat və Jurnalistika Günü münasibətilə özümüzdən bəhs edirik. Özümüzü, həmkarlarımızı təbrik edirik. Fəaliyyətlərində uğurlar arzulayırıq. Qoy Allah-təala canlarına can sağlığı qismət etsin ki, qələm əllərindən əsla düşməsin.**

Bu bayram ərəfəsində qələm, söz yoldaşlarımızdan birini-Natəvan Babayevanı itirdik. Hər birimiz böyük kədər yaşadıq. Həmkarımızın qəfil vəfatı ürəyimizi didib parçaladı. Lakin alın yazısına qarşı kim çıxa bilib ki?.. Allah həmkarımıza rəhmət etsin, yaxınlarına, bizlərə səbir versin.

Həyat davam edir. Acıları və şirinləri ilə. Gözlədiklərimiz və gözləmədiklərimiz ilə... Bu gün Natəvanın kədəri ilə qələmi əlimizə alsaq da, biz onu "yox" bilmirik ki... O daim bizimlədir, qəlbimizdədir...

Biz böyük bir orduyuq. Əsgərik, əlimizdə sadəcə silah yox, qələm var. O qələm ki, bəzən silah qədər kəsərli olur. O qələm ki, bəzən hədəfə silah qədər dəqiq vurur. Kimlərinsə səhvinə, kimlərinsə yanlışına, kimlərinsə köhnə kənddə yeni dəbinə, haramına, xəyanətinə, pis mövqeyinə, nəfsinə tuşlanır. Vurur hədəfə, dağıdır, parçalayır. Milli dəyərlərimizi yaşatmaq uğrunda mübarizə aparır. Ailə dəyərlərimizi qorumaq üçün mübarizəyə qalxır. Cəmiyyətimizin, dövlətçiliyimizin qorunması üçün mübarizə meydanına çıxır o qələm.

Bəzən qələmimiz ana sığalına çevrilir. Ətrafdakı gözəllikləri tərənnüm edir. Gözəl ənənələri bəzəyir. Uğurları al-əlvan güllərə qərq edir. Yol göstərir, məsləhət verir, tövsiyə edir.

Bəzənsə əsrlərin o başından bu başınadək yola çıxır qələmimiz. Xatırlayır olanları-keçənləri. Həyatımızda izi, sözü, əməli qalanları anır. Onları o əsrdən bu əsrə qonaq gətirir. Yenidən dünyaya bəxş edir. Onlardan bəhs edir. Yubileyini, doğum gününü, anım tarixini qeyd edir. Yaşadır qələmlər minlərlə insanı: öz dəyərləri, zəhməti, yaddaşlara saldığı işlərlə...

Qələm deyəndə tək kağız üzərinə mürəkkəb salan bir əşya düşünməyin. Qələm həm də canlıdır: müəllimdir-yol göstərir, tərbiyə edir. Həkimdir-müalicə edir, sağlamlığa çağırır. Əsgərdir-döyüşür, düşmənlə mübarizə aparır. Torpaq uğrunda mücadilə edir. Şəhid verir, Qələbə qazanır. Sonra da bu qələbəni tarixin bu başından o başına götürür. Salnamələşdirir, tarixləşdirir.

Qələm hüquq mühafizəçisidir-hüquqlardan bəhs edir, bilməyənə hüquqlarını izah edir, polisdir-asayişi qoruyur, sərhədçidir-ərazi bütövlüyü uğrunda qələmdən süngərə çevrilir.

Qələm mühəndisdir-tikir, ucaldır, qurur-yaradır. Sonra da kənardan tamaşasına dayanır. Vəsf edir, gözəlliyi gözləri ilə görməyi, qiymət verməyi bacarır...

Qələm ata-anadır, bir evin böyüyü-ağsaqqalı-ağbirçəyidir. Ənənələri qorumağı tövsiyə edir, yol gözləməyə, keçmişdən bu günə yaşananları yaşatmağa çağırır. Böyüyün-kiçiyin yerini göstərir. Doğru davranışı təbliğ edir.

Odur ki, qələmi əsla cansız bir əşya hesab etməyək. O, canlıdır, həyat doludur... Onu əlinə alanlar isə bizlərik-jurnalistlər. Qəlbimizdən, ruhumuzdan axanları qələmin yazmasına hökm verənlərik. Bir baxışla bəlkə də yüzlərlə insanın görmədiyini görənlər, sezmədiyini sezənlərik. Odur ki, çox həssasıq. Bu həssaslıq bəzən ömrümüzü yarıda qoyur. Bu peşə bəzən həyatımızı tam yarıda nöqtələyir.

Çətindir, lakin şərəflidir. Onu yarıda qoyub qaçanlar da olur. Çətinliyinə tab gətirməyənlər də olur. Lakin bizlər tab gətirənlər, peşəmizlə qürur duyanlarıq. Seçilib bu peşədə qalanlar, onun ağırlığını çiyinlərimizdə daşıyanlarıq. Odur ki, bayramı mübarək olsun, bu peşədə qalanların, olanların. Qoy qələmimiz iti, sözümüz kəsərli olsun.

VI YAZI

# Qarabağ:

## Qubadlının Azərbaycan iqtisadiyyatında rolu

### Qarabağın ən abad rayonu işğaldan xilas ediləndə tanınmaz halda idi

Qubadlı rayonu 31 avqust 1993-cü il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğal nəticəsində rayondan 29997 nəfər məcburi köçkün respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti yerləşdirilib. 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekti, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılıb və yararsız vəziyyətə salınıb. 1080 ədəd kənd təsərrüfatı obyekti, 650 km avtomobil yolu, 2 su anbarı, 150 km magistral su xətləri, 4830 km elektrik xətləri, 165 km magistral qaz boru xətti, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 ədəd dəyirman, 4 ədəd su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılıb.

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində 2020-ci il oktyabrın 25-də Qubadlının işğalına son qoyulub. Qubadlı rayonunun əsası 1933-cü ildə qoyulub, inzibati mərkəzi Qubadlı şəhəridir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aiddir. Qubadlı rayonu şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Xocavənd və Cəbrayıl rayonları, qərbdən Ermənistanla həmsərhəddir. Bazarçay (Bərgüşad), Həkəri, Kiçik Həkəri, Meydan dərəsi çayları və çoxlu bulaqlar rayonun əsas su mənbəyidir.




### Qubadlının iqtisadiyyatı və faydalı yataqları

Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edir. Rayonda 27-si mexanikiləşdirilmiş olan 31 süd-əmtəə ferması mövcud olub. Rayonda 2 üzümün ilkin emalı zavodu fəaliyyət göstərirdi. Süd-əmtəə fermalarının məhsulları yağ-pendir zavodunda emal olunurdu.

Qubadlı rayonu qiymətli faydalı qazıntı ehtiyatlarına malikdir. Rayonun ərazisi təbii dərman bitkiləri ilə də zəngindir. Qubadlı rayonunun Hacılı kəndində mişar daşı yatağı, Bərgüşad çayının sol sahilində yəşəm yatağı, Əliquluuşağı, Qundanlı, Muradxanlı və Başarat kəndlərində mərmərləşmiş əhəng daşı yataqları, o cümlədən Mollabürhan kəndinin cənubunda tuf daş yatağı, Xanlıq kəndində qum-gil yatağı, Eyvazlı kəndində əqiq yatağı mövcuddur.








İşğaldan öncə tam gücü işləyən asfalt zavodu təkcə Qubadlıya deyil, eyni zamanda, qonşu rayonlara da xidmət edirdi. İnkubator-quşçuluq fabriki və balıqyetişdirmə vətəgəsi rayon əhalisini ət və balıq məhsullarıyla təmin edirdi. Daş karxanası və mərmər sexi əhalinin tələbatını əsaslı şəkildə ödəyirdi. Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun rayonda yaradılmış filialında son tamamlama işləri gedirdi. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə fəaliyyət göstərirdi.

Qubadlı rayonunda 21 rabitə müəssisəsi var idi. 8 avtomat stansiyası quraşdırılmışdı. 1950 nömrəlik həmin stansiyalar gecə-gündüz xalqın xidmətində idi. Rayonun 33 səhiyyə müəssisəsində 56 həkim və 511 orta tibb işçisi fəaliyyət göstərirdi. 4 xəstəxana, 5 həkim ambulatoriyası, 54 feldşer-mama məntəqəsi, 4 aptek əhalinin sağlamlığı keşiyində dururdu. Rayon gigiyena-epidemologiya mərkəzi və profilaktik dezinfeksiya şöbəsi yüksək səviyyədə iş aparırdı.

### Mədəni Qubadlı - kitabxanası, muzeyi, abidələri...

İşğala qədər Qubadlı rayonunda 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb fəaliyyət göstərirdi. Bundan əlavə bir əyani-qiyabi, bir orta texniki peşə və iki musiqi məktəbi də gənc nəslin təlim-tərbiyəsində xüsusi rol oynayırdı. Məktəbəqədər müəssisələrin sayı 7 idi. Bu təlim-tərbiyə və təhsil müəssisələrində 1280 nəfər müəllim çalışırdı. Onlardan 925 nəfəri ali təhsilli idi. 43 nəfər məktəbəqədər müəssisələrdə çalışırdı. 5852 nəfər şagird ümumtəhsil məktəblərində təhsil alırdı. Məktəbəqədər müəssisələrdə 272 azyaşlı tərbiyə olunurdu.

Qubadlıda 111 mədəni-maarif müəssisəsi, o cümlədən 60 kitabxana, 10 mədəniyyət evi və 28 klab xalqa xidmət edirdi. 6 avtoklub fəaliyyət göstərirdi. 23 kino qurğusundan istifadə olunurdu. 125 ticarət, 96 iaşə obyekti qubadlılara mədəni xidmət göstərirdi. 25 məişət xidməti müəssisəsi tam gücüylə işləyirdi.

Qubadlı rayonunda ilk kitabxana 1936-cı ildən fəaliyyətə başlayıb. Mərkəzləşmə işi Qubadlı rayonunda 1980-ci ildə başa çatıb. Rayon Mərkəzi Kitabxanasında 4 şöbə var: Metodika və biblioqrafiya, Kitabişləmə və komplektləşdirilmə, Oxuculara xidmət, İnformasiya-resurs, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbələri fəaliyyət göstərib. 1993-cü ilin 31 avqust Qubadlının işğalı zamanı kitabxananın 82-kənd kitabxana filialında 89-nəfər kənd kitabxana işçisi, 40 nəfər mərkəzi kitabxana işçisi olub.

1993-cü il hesabatına görə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin fondunda 600 minə yaxın kitab fondu, 2 mərtəbəli 24 otaq, oxu zalı, 21300 oxucu kontingenti olub. Zəngəzur ərazisində ən qədim yaşayış məskəni Qubadlı rayonunun Balahəsənli kəndində aşkar edilib. Xatırladaq ki, IV əsrə aid edilən "Sığınacaq" tipli bu yaşayış yeri Daranlar deyilən ərazidə yerləşir. Qubadlının Muradxanlı kəndindəki V əsrə aid Qalalı, Əliquluuşağı kəndindəki Göy Qala abidələri, XIV əsrə aid Yazı Düzündəki Cavanşir türbəsi, Dəmirçilər kəndindəki iki türbə, XVII əsrə aid Gürcülü kəndində olan türbə, XVIII əsrə aid Aşağı Xocamusaxlı kəndində olan türbə ondan xəbər verir ki, Qubadlıda qədim dövrlərdən elm mədəniyyət mərkəzləri və ibadət edənlər olub.

Qubadlı rayon Tarix-diyarşünaslıq muzeyində 5 mindən çox nadir eksponat toplanıb. Qubadlının işğalı zamanı ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər, bütün eksponatlar vəhşicəsinə məhv edilib. Qubadlının 4-cü əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Balahəsənli kəndindəki "Cicimli ocağı", Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağac, Aşağı Xocamusaxlı kəndlərindəki digər tarixi abidələri var.

Qubadlı rayonu yenidən qurularkən memarlıqda tarixi keçmişi də nəzərə alınır. Tarixi Qubadlı yeni Qubadlının timsalında yaşadılır. Yeni infrastrukturda Qubadlı rayonu üçün böyük işlər həyata keçirilir. Onlardan biri də müqasir standartlarla inşa edilən dördzolaqlı yoldur. Bu yol Şərqi Zəngəzur iqtisadi rayonundakı rayonlar arasında birləşməni təmin edəcək, iqtisadiyyata dəstək olacaq.

Erməni vandallarının viran qoyduğu Qubadlı rayonu və onun tarixi abidələri



***Lalə Mehralı***

# Ekspert: "Qərb Paşinyana deyir ki, daha çox anti-Rusiya hərəkət etməsə, devriləcək"





***Politoloq Aleksandr Razuvayev "Moskva-Baku" portalına müsahibəsində Qarabağ ətrafında mitinqlərin fəallaşması və bunun arxasında kimin dayanması barədə maraqlı faktlar açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Aleksandr Yuryeviç, aydındır ki, Qarabağdakı separatçıların "öz müqəddəratını təyin etmələri" və bunun beynəlxalq ictimaiyyət tərəfindən tanınması ilə bağlı tezisləri yeni deyil, necə ki, onların Azərbaycan tərəfindən "soyqırımı" ilə bağlı tezis də yeni deyil, ikinci dəfə Qarabağ müharibəsindən sonra nə üçün indi aktivləşiblər? Onlar Rusiyanın İrəvandakı səfirliyinə öz tələblərini çatdırıblar, eyni zamanda, Fransadan, ABŞ-dan Azərbaycana qarşı da Rusiyaya etdikləri kimi sanksiya tətbiq etməyi tələb edirlər... Məntiq haradadır?*

- Hesab etmirəm ki, bu etirazların "başlanması" separatçıların və sadə Qarabağ ermənilərinin öz istəyi ilə baş verib. Axı bunlar Qərbdən və erməni diasporundan asılı olan uşaqlardır və paralel olaraq həm Ermənistanı, həm də separatçıları dəstəklədiklərini göstərməyə çalışırlar. Bunlar paralel proseslərdir, lakin onların əsas vəzifəsi Rusiyaya zərər vermək üçün Zaqafqaziyada daha bir qeyrisabitlik nöqtəsi yaratmaqdır.

Bu gün Rusiya tamamilə Ukrayna ətrafında baş verən hadisələrlə məşğuldur. Eyni zamanda, Moskva Ermənistan-Azərbaycan münaqişəsinin uzun səhifəsini vərəqləmək istəyir. Yəni, söhbət ondan gedir ki, İrəvan rəsmən Qarabağı Azərbaycanın bir hissəsi kimi tanısın. Qarabağın erməni əhalisinin qarşısında iki seçim var - ya reinteqrasiya və Azərbaycanın tərkibində firavan həyat, ya da Qarabağı tərk etmək.

Qarabağda ermənilərin "soyqırımı" yoxdur. Mən cənab Trampın pərəstişkarı deyiləm, həm də onun tərəfdarı da deyiləm, amma o, düzgün deyib: "Siz hər şeyi yaza bilərsiniz və müəyyən sayda insan buna inanacaq".

Belə saxta xəbərlərin tarixi uzundur. İstənilən mövzunu genişləndirə bilərsiniz. Bunun üçün xüsusi təlim keçmiş insanlar var ki, bunu çox effektiv edə bilərlər.

Separatçılar Rusiya sülhməramlılarını həm Qarabağ ermənilərinə, həm də Azərbaycana qarşı sıxışdırmağa çalışırlar ki, bu da informasiya müstəvisində çox da xoşagəlməz bir görünüşlə nəticələnir.

Dediyim kimi, Qərb üçün Cənubi Qafqaz Rusiyanı zəiflətmək üçün yaradılan növbəti qaynar ocaqdır. İkinci Qarabağ müharibəsindən sonra erməni müxalifətinin mitinqlər keçirməyə necə cəhd göstərdiklərini xatırlayırıq: "Daşnaksütyun" radikalları, "Qarabağ klanı"nın qalıqları yenidən canlanmağa çalışdılar - bunların heç bir nəticəsi olmadı: onlar özləri bəyan etdilər ki, sadə erməni əhalisi onların gündəliyinə onların gözlədiyi dərəcədə reaksiya vermir.

Nikol Paşinyanın qərbyönlü olduğunu görürük. Amma separatçılar daim Ermənistanın baş nazirini tənqid edirlər. Ermənistan dövlətinin başçısının mövqeləri o qədər də sabit deyil. İndi belə separatçı etirazların alovlanması ilə Qərb Paşinyana göstərmək istəyir ki, hər şey o qədər də sadə deyil. Və daha itaətkar davranın və sonra sizə qarşı mövcud olan təhdidlər yalnız təhdid olaraq qalacaq. Beləliklə, deyirlər ki, sən hər şeyi idarə etmirsən və hamı səndən razı deyil. Qərb üçün standart nümunə budur.

Ermənistanın baş naziri 2018-ci ildə hakimiyyətə gətirildiyi vaxtdan bəri tamamlamalı olduğu ssenarini tam həyata keçirə bilmədiyi üçün Qərbin ona qarşı iddiaları var. Hələlik, onun bu ssenarini həyata keçirməsi yarımçıq və qeyri-müəyyəndir. Nikol Paşinyanın başqa seçimi yoxdur. O, Qərblə Rusiya arasında balans yaratmalıdır. Ermənistanın baş naziri hamının xoşuna gəlməyə çalışmalıdır. Onun nə dərəcədə uğur qazanması açıq sualdır. Lakin o, zamanın göstərdiyi kimi, çevik siyasətçidir.

Ukraynanın əks-hücum əməliyyatı uğursuzluğa düçar oldu, lakin Qərbin əvvəlki vəzifəsi qalır - Rusiyanın diqqətini yayındırmaq, onu zəiflətmək və gərginlik ocağı yaratmaq. Qarabağ isə Rusiya Federasiyasını zəiflətmək üçün çalışdıqları strateji nöqtələrdən biridir.

Azərbaycan İkinci Qarabağ müharibəsində qalib gəldi və bundan sonra revanşistlər, Cənubi Qafqazda sülhün olmamasında maraqlı olanlar nə qədər çalışsalar da, Azərbaycan bu vəziyyətdə yenə də lider olaraq qalır.

Sadə erməni əhalisi qüvvələr nisbətinin fərqindədir və daha yaxşı həyat haqqında düşünür. İqtisadiyyat və daha yaxşı həyat arzusu obyektiv olaraq millətçi hisslərdən daha güclüdür.

Buna misal olaraq Qarabağın erməni əhalisinin Laçın sərhəd-keçid məntəqəsindən keçərkən Azərbaycan sərhədçiləri ilə təmaslarını göstərmək olar. Hətta hansısa bir şeyin səhv olduğuna dair heç bir fakt yoxdur. Hamı sakitcə bir-biri ilə əlaqə saxlayır, erməni əhalisi hətta Azərbaycan sərhədçilərinə təşəkkür edir. Bu, yaxşı nümunədir. Bu, onun göstəricisidir ki, sadə əhaliyə müdaxilə edilməsəydi, qorxudulmasaydı, çoxdan hər şey yaxşı olardı. Bu, Qarabağın erməni əhalisinin Azərbaycana qarşı aqressiv olmadığının, münaqişənin gərginləşməsinə səbəb olmaq istəmədiyinin, yeni müharibə istəmədiyinin göstəricisidir. Yəni, sadə əhali özünü kifayət qədər rasional və ağılla aparır.

*-Qərb Ermənistana və separatçılara daha çox kömək edəcəkmi?*

- Azərbaycan enerji təhlükəsizliyi mənbəyi kimi Qərbə müəyyən dərəcədə faydalıdır. Eyni zamanda, bu, Qərbin vaxtaşırı Bakıya qarşı sanksiyalar tələb edən anti-Azərbaycan qətnamələri qəbul etməsinə mane olmur. Düzdür, sonda bütün bunlar kağız üzərində qalır, hətta ondan sonra da müxtəlif Qərb ölkələrindən izahatlar gəlir, deyirlər, biz təəssüf ki, Azərbaycana qarşı sanksiyalar tətbiq edə bilmərik.

Amma Azərbaycana getdikcə daha çox təzyiq göstərməyə çalışacaqlar. Bildiyiniz kimi, ABŞ-ın Ermənistandakı səfirliyi dünyada ən böyük səfirliklərdən biridir. Və boş yerə deyil. Üstəlik, burada Fransa və ABŞ-dakı erməni diasporunun miqyasını və təsirini əlavə etmək lazımdır. Deməli, bütün bu qüvvələr regionda Azərbaycan və Rusiyaya qarşı vəziyyəti sarsıtmaqdan əl çəkməyəcək. Bu yalnız artacaq. Axı, onlar üçün məğlub olaraq qalmaq sərfəli deyil və hər şey buna doğru gedir. Beləliklə, mübarizə uşaqcasına olacaq.

İndiyə qədər erməni tərəfi və ermənipərəst lobbisi buna nə qədər can atsa da, Azərbaycana qarşı heç bir sanksiya tətbiq edilməyib. Sanksiyaların tətbiqi üçün ciddi izahatlar lazımdır. Axı Azərbaycan Avropanın mühüm neft və qaz tədarükçüsüdür. Üstəlik, bu, Qərbin gördüyümüz kimi münasibətlərini qorumağa çalışdığı Türkiyə ilə də ciddi şəkildə mübahisə etməsi deməkdir.

Bundan əlavə, Azərbaycan son illər statusunu artırır, lakin bununla belə, ona qarşı təzyiqlər kifayət qədər ciddidir. Bununla yanaşı, Bakı sözsüz ki, möhkəm dayanacaq və Qarabağ məsələsini həll edəcək. Axı Azərbaycan Respublikası özünün mükəmməl diplomatiyası sayəsində ildən-ilə daha da güclənir. Bakı həqiqətin onun tərəfində olduğunu nəzərə alır. Amma bu gün dünyada qalib gəlmək üçün həqiqət o qədər də sənin tərəfində olmamalıdır (bu işə yaramır), güclü və nüfuzlu olmaq lazımdır. Və hər tərəfdən təzyiq altında olduğunuz zaman müstəqil olmağı bacarmalısınız. Azərbaycanın iqtisadiyyatında, güclü müasir orduda hər şey qaydasındadır. Son illər Azərbaycan nəinki regionda, hətta dünyada nüfuzlu dövlətə çevrilib. Sadə dillə desək, Bakının Qarabağ məsələsini həll edəcəyinə əminəm.

*- Bu gün Paşinyanın vəziyyəti necədir? İrəvanda artan etirazlar fonunda Ermənistanın baş naziri nə edib, o, sadəcə fermaya gedib... Qəribə seçim kimi görünür, amma rəsmi İrəvanın hər zaman eyni şeyi təkrar etdiyini nəzərə alsaq, Bakı separatçılarla danışıqlar aparmalıdır. Yəni Ermənistan hakimiyyəti vəziyyətdən geri çəkilməkdə davam edir və məsuliyyətdən azad olmağa çalışır...*

- Paşinyan başa düşür ki, o, yenə də Qarabağı Azərbaycan ərazisi kimi rəsmən tanımalı olacaq. Amma o, belə bir etirafa imza atmaq istəmir. Başa düşür ki, bu, prinsipial məsələdir və təbii bilir ki, baş nazir imzanı atacaq, ondan sonra nə olacaq... Bu, artıq problemdir. Paşinyan vəziyyətinin təhlükəli olduğunu anlayır.

*- Bütün bu hadisələr fonunda Rusiya Xarici İşlər Nazirliyi sülh müqaviləsinin imzalanması ilə bağlı liderlərin danışıqlarına əlavə çıxış imkanı ilə nazirlərin üçtərəfli görüşünü təşkil etməyi təklif etdi... Qərbin vəziyyətə fəal təsir etmək cəhdlərini görən Moskva prosesi tezləşdirməyə çalışır?*

- Bəli. Moskva praqmatikdir. Qərb Cənubi Qafqaza dırmaşmasın deyə, Rusiyanın bu məsələni birdəfəlik bağlaması daha yaxşıdır. Və əbədi olaraq - bu, Sovet dövründə mövcud olan sülh müqaviləsidir və sərhədləri müəyyən edir. Bundan əlavə, Moskva Şimal-Cənub layihəsinin tam həyata keçirilməsində çox maraqlıdır. Bunun üçün isə Azərbaycanla və ən yaxşısı, Zaqafqaziya və Xəzəryanı dövlətlər arasında danışıqlar aparmaq bacarığı lazımdır.

***Tərcümə - Elçin Bayramlı***



Təhmasib Novruzov

# Sülhə hamilə Qafqaz

Nə az, nə çox, düz iki yüz əlli ilə yaxındır ki, qafqazlar deyilən regionumuzda qan su yerinə axır. Ta çar rusiyası, Romanovlar sülaləsi qafqaz iştahına tutulandan bu günə qədər bölgəmiz dönüb olub qan çanağı. Onun son yüz iyirmi ili isə, el arasında deyildiyi kimi, erməni-müsəlman davası kontekstində davam edir.

Oturub hərdən düşünürsən, əcəba bu imperiya düşkünləri, zəif, fəqir millətlərin qanı, canı, malı, mülkü ilə özünə xəzinələr toplamış bu qaniçənlər ordusu nə zaman qandan doyacaq da, biz də bir rahatlıq tapaq, biz də dinc, sakit, sülh içində yaşayaq, bir-birimizə can deyək, bir-birimizdən can eşidək!? Makedoniyalı İsgəndərdən tutmuş Əmir Teymura qədər dünyanın bütün fatehləri qafqaza sahib olmaq üçün milyon tonlarla qan axıdıblar. Bu torpaqlada axıdılan qanları sakit okeana töksəydilər, o boyda okean nəhəngi rəngini dəyişib al-qana bürünərdi. Səfəvilər və Əfşarlar zamanında bu savaş həngamələri buralardan uzaqlaşsa da, bölgədə parçalanma siyasəti başlanan kimi şimaldam Pyotr rusiyası dişini qıcadı torpaqlarımıza və beləcə, yenidən bölgə döndü savaş meydanına. Həm də bölgənin tarixi sahibi olan türklər qaldı bir yanda, ruslarla farslar başladılar bu torpaqlar uğrunda savaşmağa. Böyük şairimiz Bəxtiyar Vahabzadə demiş, bir deyən olmadı, durun, ağalar, axı bu torpağın öz sahibi var! Sonda ona nail oldular ki, min illər boyu bir bayraq altında yaşayan bütöv bir xalqın özünü də, torpaqlarını da ikiyə bölməyi bacardılar. O taydakıları fars şovinistləri, bu taydakıları rus şovinistləri kölə etməyi bacardılar. Amma bununla da bitmədi. Bu dəfə rus şovinistləri gələcəyə hesablanmış bir məkrlə erməni-hay tayfalarını dünyanın hər yerindən yığıb gətirdilər qafqaza. Qədim türk torpaqlarında onlara rahat həyat qurdular və özlərini də qızışdırdılar ki, bərk durun, türkləri burden qovub sizə burda sərhədləri dənizdən dənizə bir dövlət quracağıq. Rusların bu siyasətindən faydalanmaq istəyən bəzi qərb gücləri də, başda firənglər olmaqla, başladılar hayları haylamağa ki, biz deyənləri edin, ruslar söz verdiyi dövləti sizə biz quracağıq. Tarixən satqın, ikiüzlü ermənilər də başladılar qərblə ruslar arasında "mutilşiklik" eləməyə. Beləcə, qafqaz döndü oldu qərblə rusiyanın maraqlarının kəllə-kəlləyə gəldiyi poliqon. Düz yüz iyirmi ildən də çoxdur ki, Parislə Moskva, İngilislə Amerikan bu regiona ağalıq uğrunda savaşa qalxıblar. Tarixin heç bir dönəmində (ta XIX əsrə qədər-T.N.)) bu ərazilərdə yaşamayan haylara, qərblə rus əlbir olub bir dövlət (əslində dövlət adlandırılan bir layihə - T.N.)) də təşkil elədilər. Hayların iştahı o qədər tüğyan elədi ki, dedi yox, bu azdı. Bir az da böyütdülər. Yenə dedi azdı. Bir az da böyütmək istəyirdilər ki, tanrı bu torpaqların tarixi sakinləri içindən ata-babaların qoyub getdiyi "Vətən" adlı əmanətin sahibi, nəhayət ki, gəlib çıxdı. İndi nə qədər burunlarını ovuruq və deyirik ki, bizim yurdumuzda dövlət qurmuşunuz? Yaxşı, gəl o dövlətini də tanıyaq, qonşu kimi dinc-dinməz yaşayaq. Kimə deyirsən? Guya özbaşınadı? Ordan rus dartıb aparıb bir şey pıçıldayır qulağına, burdan farslar aparıb Annanın xətrinə onlara dayaq olmalarını deyib qızışdırır, o tərəfdən də bu ərazidə yüz illərdi gözü olan firənglər düşüb əl-ayağa ki, amandı, mən deməsəm barışıq eləmə. Zavallı...(üzr istəyirəm-T.N.)), gicbəsər erməni də bilmir kimin dediyin eləsin, qalıb ortalıqda.

Nəhayət ki, Amerika deyilən dünya gücü girdi meydana və kənardan qoyulan "mız"ları alt-üst edibistəyir ki, qafqazda sülh, özü də dayanıqlı, yəni gələcəkdə kimlərinsə poza bimyəcəyi sülh yaratsın. İnsafən, özünün bəzi-bəzi maraqları naminə girsə də meydana, amerikalıların indiki barış missiyası həm haylar üçün, həm də bizim üçün yararlıdır. Yəni kimsə, nəsə uduzmur, hər kəs indiki dünyada tanınmış sərhədləri daxilində rahatlıqla, necə deyərlər, sülh, əmin-amanlıq şəraitində yaşayır və bir-birinin torpağına da əl uzatmır. Beləcə, Amerikanın sayəsində Qafqaz torpaqları sülhə hamilə oldu. Atası biz, anası da haylar olacaq bu bətndəki sülhbalanın barı-həmlini yerə qoymaq zamanı çatıb. Di gəl yenə ordan-burdan "mamaçalar" başını qaldırıb dava döyürlər ki, bu sülhbalanı mən tutmalıyam. Rus mamaça ordan, firəng mamaça burdan, fars... Yox, farsların mamaçaları tutsa bu sülhbalanı, göbəyi sepsis olacaq, ona görə də onları yaxın qoymaq olmaz. Qalır Amerika, Rusiya, bir də Fransa adlı mamaçalar. Allah xatirinə, biri dursun qabağa, işini görsün. Yoxsa bu sülhbala elə bətndəcə boğulub tələf olacaq. Sonra gəl təzədən Azərbaycan atalıq, haylar analıq eləsin, təzədən qafqaz sülh üçün hamilə olsun... E... uzun prosesdi. Ən yaxşısı ana bərnində yetişmiş bu sülhbalaya üç mamaça arasında razlıq olsun, biri onun barı-həmlini qoysun yerə. Biz də yazığıq axı!

# Pyotr Tolstoyun açıqlaması Rusiya-Azərbaycan strateji müttəfiqlik müqaviləsinə ziddir



Rusiya və Azərbaycan Xarici İşlər nazirliklərinin bir sıra qarşılıqlı bəyanatlarından sonra Rusiya-Azərbaycan münasibətləri Moskva üçün daha dolğun təhlil obyektinə çevrilib. Rusiya mətbuatı Dağlıq Qarabağın Azərbaycanın bir hissəsi kimi tanınması və Rusiya sülhməramlılarının statusu məsələsi ilə bağlı ölkələrin mövqelərinə aydınlıq gətirmək üçün keçirilən sonuncu diplomatik dueli "ziddiyyətli" adlandırıb. Azərbaycan tərəfi, müttəfiqlik münasibətləri çərçivəsində Rusiya tərəfinin Dağlıq Qarabağ məsələsində bir az da həssaslıq göstərməli olmasından danışıb.

Halbuki, Rusiya prezidenti dəfələrlə öz bəyanatlarında, rəsmi çıxışlarında Azərbaycanın ən yaxın müttəfiqlərdən olduğunu və Qarabağ məsələsində də ədalətə və hüquqa söykənən siyasət yeritdiyini qeyd edib. Rusiyanın nüfuzlu politoloqları Sergey Markov, İqor Korotçenko, Yevgeni Mixaylov, Aleksandr Razuvayev, Andrey Petrov, Dmitri Solonnikov, Leonid Kalaşnikov və sair ictimai xadimləri də Azərbaycanın haqlı mövqeyini həmişə müdafiə ediblər. Ölkələrimiz arasında Strateji Müttəfiqlik haqda Müqavilə imzalanıb və Azərbaycan bu müttəfiqliyə xələl gətirən heç nə etmir.

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə Ukraynaya humanitar yardım üçün 7,6 milyon dollar ayırıb. Rusiya-Azərbaycan münasibətlərini şərh edən Dövlət Dumasının sədr müavini Pyotr Tolstoy Rusiyanın aparıcı dünya dövləti mövqeyinə malik olduğunu, əvvəllər onun tərkibində olan dövlətlərin ondan asılı olduğunu və asılı olacağını vurğulayıb.



"Rusiya aparıcı dünya dövləti mövqeyinə malikdir, əvvəllər onun tərkibində olan ölkələr ondan asılı idi və bundan sonra da belə olacaq"-deyən Tolstoy bildirir ki, Azərbaycan, Ermənistan və Ukrayna hansısa məqamda qərara gəldilər ki, onların başqa geosiyasi vektora nəzər yetirmək imkanı var. Lakin iqtisadi, siyasi, coğrafi və tarixi baxımdan bu ölkələr üçün Rusiyadan başqa başqa istiqamət yoxdur. Rusiya bu ərazilərdə sakitləşdirmə və nizam-intizam yaratmaq siyasəti aparır.

O deyib ki, Rusiya olmadan nə Ermənistan, nə Azərbaycan, nə də Ukrayna mövcud olacaq.

"Burada vacib olan budur. Qalan hər şey bu anlayışa əsaslanaraq nəticə verəcək", - deyə rusiyalı deputat fikrini yekunlaşdırıb.

Ümumiyyətlə, Pyotr Tolstoyun açıqlaması anlaşılan deyil. Onun açıqlaması Rusiya ilə Azərbaycan arasında olan normal münasibətlərə kölgə salır. Təəssüf ki, Rusiyada Azərbaycanla əlaqələrə kölgə salan Zatulin, Milonov kimilərinin sayı yüksələn xətt üzrə irəliləyir ki, bu hal, o cümlədən də Rusiya Dövlət Dumasının üzvü Pyotr Tolstoyun açıqlaması dövlətlərarası münasibətlərə xələl gətirir. Eyni zamanda, son zamanlar Rusiya mediasında da anti Azərbaycan ab havası artır, ölkəmizin ünvanına kəskin hücumlar özünü açıq büruzə verir.

Azərbaycan 32 ildir müstəqil dövlət kimi inkişaf edir, beynəlxalq münasibətlər sisteminin nüfuzlu üzvlərindən biridir. Bu gün Azərbaycan həm siyasi, həm iqtisadi, həm də digər aspektlərdən tam müstəqil güclü dövlətdir, heç bir ölkədənm asılı deyil. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının ən böyük problemini həll edərək- Qarabağı azad edərək müzəffər sərkərdə kimi adını tariximizə qızıl hərflərlə yazdıran İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafını da təmin edib və ölkəmizin dünya birliyində layiqli yeri tutmasına səbəb olub.

Rusiya XİN in son açıqlamaları da göstərir ki, bu xətt təsadüfi deyil. Bu ittihamların və iddiaların hardan, hansı səbəbə qaynaqlandığı hamıya bəllidir. Hamı bilməlidir ki, müstəqil dövlət kimi Azərbaycan öz ərazisində prosesləri ölkə qanunvericiliyi çərçivısində tənzimləməlidir və tənzimləyir. Qarabağdakı ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyası da daxil olmaqla bütün məsələlər bu kontekstdə qiymətləndirilməlidir. Bu, zəruru prosesdir və bu prosesə maneçilik törədilməsi cəhdlıri iflasa məhkumdur. Buna görə də ölkəmizə qarşı bu hücumların müəllifləri və icraçıları başa düşməlidirlər ki, bu yolla Azərbaycana təsir göstərmək, onu yolundan döndərmək mümkün deyil.

***Elçin Bayramlı***

# "Qarşıdakı illərdə media sahəsində daha böyük uğurların şahidi olacağıq"




"Son illərdə Azərbaycan mətbuatını əvvəlki illərdən fərqləndirən ən başlıca amil bizim artıq qalib ölkənin mətbuatı olaraq fəaliyyət göstərməyimizdir". Bunu "Həftə içi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsindəki tarixi zəfər Azərbaycan mediasının da fəaliyyət istiqamətlərində, məzmununda ciddi dəyişikliklərə yol açdı: "Artıq media olaraq bizim də qarşımızda bölgədə ölkəmizin yaratdığı reallıqlara uyğun olaraq tamamilə yeni çağırışlar, yeni istiqamətlər dayanır. İndi başlıca məsələ bu çağırışlarla vaxtında ayaqlaşmaq, media fəaliyyətinin qarşımızda açdığı imkanlardan daha səmərəli və faydalı yararlanmağı bacarmaqdır. Əvvəlki illərdə olduğu kimi, bu il də Azərbaycan dövlətinin mediaya diqqət və qayğısı davam etdirilib. MEDİA agentliyi vasitəsi ilə istər çap, istərsə də onlayn mediaya göstərilən yardımlar mətbuatın inkişafında, jurnalistlərin sosial-iqtisadi durumlarının yaxşılaşdırılmasında mühüm rol oynayır. Peşəkar ekspertlər vasitəsi ilə təşkil edilən çoxsaylı təlimlər, seminarlar isə bu sahəyə üz tutan gənc kadrların jurnalist biliklərinin, təcrübələrinin artırılmasına ciddi təsir edir. Təbii ki, mətbuatla bağlı durumu dəyərləndirərkən, "Media haqqında" yeni qanunun qəbulunu da xüsusi vurğulamalıyıq. Bu qanunun tələblərindən irəli gələrək illərdir media sahəsində müşahidə etdiyimiz pərakəndəlik tədricən aradan qalxır. Hüquqi qeydiyyat sahəsində təmərküzləşmə aparılır. Təsadüfi insanların media cəməsindən tədricən uzaqlaşdığı, peşəkarlıq amilinin ön plana çıxdığını müşahidə edirik. Jurnalistlərin sosial-iqtisadi çətinliklərinin aradan qaldırılması istiqamətində dövlət tərəfindən onların güzəştli ipoteka alanların kateqoriyasına daxil edilməsi, vergilərlə bağlı güzəştlər də medianın iqtisadi dayanıqlığının təminində müsbət təsirini göstərir. İnanıram ki, qarşıdakı illərdə media sahəsində daha böyük uğurların şahidi olacağıq. Bütün həmkarlarımı bir daha Mətbuat Günü münasibəti ilə təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram".

***GÜLYANƏ***

# "Tolstoy fikirlərinə görə Azərbaycandan üzr istəməlidir"



"Rusiya Dövlət Dumasının üzvü Pyotr Tolstoy tanınmış tele-jurnalistdir və efir verilişləri ilə parlament mövqeyini dəyişik salır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə Pyotr Tolstoyun "Rusiyasız nə Ermənistan, nə də Azərbaycan mövcud olacaq" sözləri haqqında düşüncələrinə etiraz edərək deyib."Rusiyanın vitse-spikeri çox böyük səhv edir. Onun söylədiyi fikirlər beynəlxalq hüquq normalarına, Rusiyanın rəsmi siyasətinə, hakim vahid Rusiya partiyasının siyasi xəttinə ziddir. Pyotr Tolstoy bilməlidir ki, bugünkü dünyada sülhün, stabilliyin qorunmasının əsas şərtlərindən biri dövlətlərin suverenliyinə, dövlət müstəqilliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmaqdır. Onun dedikləri orta əsr təfəkkürüdür, Çar Rusiyasının apardığı işğalçılıq siyasətinin ideologiyasıdır, təzahürüdür. Tolstoy tanınmış tele-jurnalistdir və efir verilişləri ilə parlament mövqeyini dəyişik salır. O bilməlidir ki, dünyanın müstəqil dövlətlərinin hər biri öz müstəqilliyinin keşiyindədir. Beynəlxalq hüquq da dövlət müstəqilliklərinin keşiyindədir.Hesab edirəm ki, Pyotr Tolstoy bu fikirlərinə görə ilk növbədə Azərbaycandan üzr istəməlidir. Onun söylədiyi fikirlər Rusiya prezidentinin, hakimiyyətinin, hakim Vahid Rusiya Partiyasının siyasi mövqeyinə ziddir və bu cür fikirlər iki dövlət arasındakı münasibətlərə çox böyük zərbə vuran revanşist fikirlərdir. Bu, imperiyanı bərpa etməyə çalışan müəyyən millətçi dairələrin fikirləridir. Şübhəm yoxdur ki, Rusiyanın rəsmi dairələri qısa bir zamanda hakim partiyanı təmsil edən vitse-spiker postunda olan Tolstoyun fikirlərinə aydınlıq gətirəcəklər və təkzib edəcəklər.

Rusiya qonşu dövlətlərlə münasibətlərdə belə səhvlərə yol verməməlidir. Əlbəttə ki, Tolstoyun fikirləri ümumi Rusiyanın fikirləri deyil. Lakin Pyotr Tolstoy heç də sıradan vəzifə tutmur. Rusiyanın bu gün Azərbaycanla yaxşı münasibətləri var. Biz strateji müttəfiqik və strateji müttəfiqin suverenliyini şübhə altına almaq siyasətçi üçün bağışlanmaz, böyük səhvdir. Rusiyanın bu məsələdə aydınlaşdırıcı bəyanatının olmasını gözləyirik", - deputat bildirib.

***Aysel Naibli***

# Biz nə qədər jurnalistik?

## Jurnalistlərin neçə faizi etik davranış qaydalarını, hüquq və öhdəliklərini, vəzifə borclarını bilir?

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*




***22 İyul - Milli Mətbuat Günü ərəfəsində jurnalistlərin etik davranış kodeksi, iş prinsipi, təməl qaydalar bir daha yada düşür. ”Hansımız nə qədər keyfiyyətli yazırıq”, ”hansımız nə qədər prinsiplərə əməl edirik”, ”hansımız peşəkarlıqdan uzaqlaşmışıq”, ”hansımız etik davranış qaydalarını pozuruq” kimi suallar gündəmə gəlir.***

2003-cü il martın 15-də Azərbaycan Jurnalistlərinin I Qurultayında qəbul edilən ”Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları” ATƏT və Azərbaycan Mətbuat Şurasının birgə layihəsi əsasında təkmilləşdirilib. 2018 -ci ildə Avropa Şurasının və Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə ona yeni prinsiplər əlavə edilib. Bütün dəyişikliklər 2022-ci il sentyabrın 24-də Azərbaycan Jurnalistlərinin VIII Qurultayında bütün yenilik və dəyişikliklər təsdiq olunaraq qüvvəyə minib.









Sənədə görə 5 əsas prinsip əsas tutulub. 1 - Həqiqətə xidmət, dəqiqlik və obyektivlik, 2- İnformasiya qaynaqlarına sayğılı yanaşma, 3- Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığı, 4- Gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin müdafiəsi, 5- Jurnalistin özünün və çalışdığı orqanının reputasiyasının qorunması. 5 təməl prinsip ayrı-ayrılıqda izah edilərək Azərbaycan jurnalistlərinin etik davranış qaydaları, hüquq və öhdəlikləri, vəzifə borcları vurğulanıb.

Mətbuat sahəsində etik prinsiplərə dair ilk sənəd kimi tanınan ”Jurnalistikanın Əsasları” - ”Cannons of Journalism” nəşri isə 1922-cü ildə Amerikada çapdan çıxıb. Nəşrin müəllifi Amerika Xəbər Redaktorları Cəmiyyəti idi. Peşəkar Jurnalistlər Assosiasiyası təsis edildikdə - 1926-cı ildə bu nəşrin əsasında yeni prinsiplər tətbiq edilir. Bu sənəd bütün dünya jurnlaistləri üçün təməl peşə prinsipləri kimi qəbul edilir.

Sənədə görə, jurnalist özü üçün nəticələrindən asılı olmayaraq, fakt-lara və həqiqətlərə hörmət etməli və onlara əməl etməlidir. Bu ictimaiyyətin həqiqəti öyrənmək hüququnun təməlini təşkil edir. Jurnalistlər nəyin bahasına olursa-olsun, məlumat və xəbər almaq, şərh vermək və tənqid etmək hququna malikdir və bu azadlıqları da müdafiə etməlidir.

Jurnalist bəşəriyyətin ümumbəşəri dəyərlərini, xüsusilə sülhü, demokratiyanı və insan haqlarını müdafiə etməlidir. O, bütün millətlərin, bütün xalqların və bütün fərdlərin hüquq və ləyaqətini irqi, etnik mənsubiyyəti, cinsi, dili, milliyyəti, dini, sinfi və fəlsəfi inancına görə ayrı-seçkilik etmədən tanımalıdır. İnsanlar, ümmətlər və millətlər arasında kin və düşmənçilik yaymaqdan çəkinməlidir. Bir millətin, cəmiyyətin və fərdlərin mədəni dəyərlərini və inanclarini təhqir edə bilməz. Jurnalist zorakılığa haqq qazandıran, təşviq edən və ya təhrik edən hər hansı məlumatı yazmamağa, paylaşmamağa və dərc etməməyə diqqət yetirməlidir.

Peşəkar jurnalist, mənbəsi məlum olmayan məlumatları və xəbərləri dərc etmir. Hətta mənbə aydın olmayanda, məlumatı dərc etmək qərarına gəldiyi hallarda ictimaiyyətə mənbənin olmadığı, təsdiqlənmədiyi barədə lazımi xəbərdarlıqları etməlidir. Jurnalistlər, xüsusilə istinad mədəniyyətini inkişaf etdirməli, bir başqa media orqanının və ya həmkarının məlumatlarından istifadə edərkən ilk mənbənin göstərilməsinə diqqət yetirməlidir.

Jurnalist məlumatları məhv edə və ya görməməzliyə vura bilməz, mətnləri və sənədləri dəyişdirə və ya saxtalaşdıra bilməz. Yalan, aldadıcı və saxtalaşdırılmış nəşr materiallarından istifadə etməkdən, ictimaiyyəti səhv yönləndirməkdən çəkinməlidir. Həmçinin, jurnalistlər məlumat, xəbər, fotoşəkil, görüntü, səs və sənədlər əldə etmək üçün çaşdırıcı, aldadıcı üsullardan istifadə edə bilməzlər. Jurnalist heç bir məqsədlə icazəsiz şəxsi həyatın toxunulmazlığı prinsipini poza bilməz.

Jurnalist dərc edilmiş hər hansı səhvi tez bir zamanda düzəltməyə borcludur və qarşı tərəfin cavab hüququna hörmət etməlidirlər. Jurnalist peşə sirri prinsipinə uyğun olaraq, icazə verməndiyi halda, ona etibarlı şəkildə verilmiş məlumatların və sənədlərin mənbələrini açıqlamaya bilər. Jurnalist plagiat, böhtan, təhqir, təxribat, manipulyasiya, şayiə, dedi-qodu və əsassız ittihamlardan ibarət məqalələr yazmamalı, sujetlər hazırlamamalıdır.

Jurnalist məlumatın və ya xəbərin dərci və ya dərc edilməməsi müqabilində heç bir maddi və ya mənəvi təmənna güdə bilməz. Jurnalist dövlət başçısından tutmuş deputata, iş adamından tutmuş sadə vətəndaşa kimi xəbər mənbəyi sayılan bütün insanlar və qurumlarla ünsiyyətini peşə prinsiplərinə riayət etməklə aparmalıdır.

Jurnalist, jurnalistika peşəsini reklam və ya təbliğatla qarışdıra bilməz, heç bir təklif və ya reklamdan maddi qazanc əldə edə bilməz. Mövzusundan asılı olmayaraq, jurnalist əldə etdiyi məlumatı dərc üçün geniş ictimaiyyətə təqdim etmədən öz xeyrinə istifadə edə bilməz, əlindəki informasiyadan istifadə edərək şantaj, hədələmə yollarına baş vura bilməz. O, qanun və qaydalarla ona verilən hüquqlardan başqa, öz peşəsindən heç bir şəkildə imtiyazlar əldə etmək üçün istifadə edə bilməz.

Eyni zamanda, qanunlar jurnalistin hansı məqsədlə olursa olsun, öz peşəsindən istifadə etməklə əsassız varlanmaq, imtiyaz əldə etmək və ya üstünlük qazanmaq üçün hədə, şantaj kimi üsullara əl atmağına imkan vermir. Jurnalist təzyiqə məruz qala bilər, lakin işlədiyi media orqanının rəhbərlərindən başqa heç kimdən işi ilə bağlı göstəriş ala bilməz.

Jurnalist olmağı qarşısına məqsəd qoyan hər kəs, öz ölkəsinin qanunlarına hörmətlə yanaşaraq, peşə prinsiplərinə ən yüksək səviyyədə riayət etməlidir. Jurnalist hər şeydən əvvəl xalqın məlumat almaq hüququna hörmət etməli, dövlətin sirlərini faş etməməklə yanaşı bunu təmin etməldir. Xüsusilə müharib şəraitində bu vəzifə daha böyük məsuliyyət deməkdir. Biz 44 günlük müharibə dövründə çox az həmkarımızın bu prinsipə əməl etdiyinin şahidi olduq. Həm bəzi jurnalistlər, həm də vətəndaş jurnalistikası ilə məşğul olan şəxslər müharibə ərəfəsində ordu və gedişat ilə bağlı ictimailəşdirilməməsi vacib olan məlumatları paylaşdılar.



Dürüstlük, həqiqətə sədaqət, obyektivlik, qərəzsizlik və s. kimi jurnalistikanın əsas prinsipləri təmin edilməklə yanaşı, alçaldılma, qınama, şəxsi həyatın toxunulmazlığının pozulması kimi pozuntulara da yol verilməməlidir. Zorakılığa, ədəbsizliyə təhrik kimi ümumi əxlaqi məsələlərdə həssaslıq göstərilməsi şərtdir. Jurnalist cəmiyyətin müşahidəçisidir, insanların səsidir, problemlərin carçısıdır. Peşəsinə, etik dəyərlərə, əxlaqi prinsiplərə xəyanət etməyən bütün həmkarlarımı Milli Mətbuat Günü münasibəti ilə təbrik edir, həmişə vicdanlı olmağı təmənna edirəm.

**Lalə Mehralı**

SƏS
22 iyul
2023-cü il

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Acqarına yeyilməsi narahatlıq doğuran bu qidalara diqqət edin!



**Gündəlik rasionumuzda elə qidalar var ki, onları acqarına qəbul etmək olmaz, çünki bəzi məhsulların yeyilməsi boş mədədə bir çox problemlərin yaranmasına səbəb ola bilər. Məsələn, çox vaxt səhər oyanan kimi bir fincan qəhvə içib günə enerjili başladığını düşünənlər var. Mütəxəssislər isə acqarına qəhvə içməyin yolverilməz olduğunu deyirlər.**

Həkim-fitoterapevt Fizuli Hüseynov bu barədə AZƏRTAC-a deyib: "Qəhvənin tərkibindəki kofein həddindən artıq sürətlə qandakı şəkəri qaldırır və bunun nəticəsində orqanizmdə gələcək problemlərin yaranmasına və gün ərzində susuzluqdan, baş ağrısından əziyyət çəkməyə səbəb olur. Az müddətdə alınan enerjiyə aldanıb acqarına qəhvə içmək məsləhət görülmür".

Onun dediyinə görə, vitamin deposu adlandırılan meyvələr də boş mədəyə düşəndə fayda vermir: "Bəzi meyvələrin tərkibində həddindən artıq turşuluq olduğuna görə mədə problemi olanlarda narahatlıq yaradır. Mədəsində problem olmayanlarda isə turşuluğun səviyyəsini qaldırdığına görə qastritə və allergiyalara səbəb ola bilər. Belə tərəvəzlərə pomidoru da aid etmək olar, çünki onun da tərkibinin turşuluğu eyni reaksiyanı göstərə bilər. Məhz həmin keyfiyyətinə görə səhər acqarına onun da qəbul edilməsi zərərli nəticələrə səbəb olar".

Acqarına mövsümi meyvələrdən olan xurmanın qəbulu da məsləhət deyil. Bundan başqa mayalı-xəmirli şirniyyatlar aclığı yatırsa da, mədədə şişkinliyə və köklüyə səbəb olur. Hazır səhər yeməkləri və fast-fudların da acqarına yeyilməsi həzm sistemində pozuntulara, immun sisteminin zəifləməsinə aparıb çıxarır.

## İlon Mask ŞOKDA: Daha 20 milyard dollar itirdi!

İlon Mask daha bir maliyyə itkisi ilə qarşılaşıb. Amerikalı sahibkar sahibi olduğu Tesla avtomobil kompaniyasının səhmlərinin ucuzlaşması səbəbindən dünən 20,3 milyard dollar itirib. Bloomberg indeksinə görə, bu, tarixdə yeddinci ən böyük azalma olub. Nəticədə İlon Maskın sərvəti 234,4 milyard dollara qədər azalıb.



## Neymarı PSJ-yə bağlayan illik 25 milyon avroluq maaşdır...




Nüfuzlu "L'Equipe" nəşri PSJ-nin braziliyalı hücumçusu Neymarın Fransa komandasını tərk etmək fikrindən daşınmasının səbəbləri barədə yazı dərc edib. Yazıda qeyd olunur ki, Neymarın qərarına bir çox amillər təsir edib. Braziliyalı Parisdə rahatdır. Futbolçu bu yaxınlarda 2-ci dəfə ata olub. O, indi illik 25 milyon avro olan maaşdan razıdır. Bundan əlavə, ulduz forvard PSJ ilə zədəsiz mövsüm keçirməyə və UEFA Çempionlar Liqasını qazanmağa can atır. Neymarın özü isə ötən gün açıqlamasında PSJ-də qalmaq istədiyini bildirib.

## Bakıda avtobus yanıb



Dünən saat 13:00 radələrində paytaxtın Xətai rayonunun Köhnə Günəşli qəsəbəsi, İnqilab İsmayılov küçəsində "İsuzu" markalı, 99-JU-545 dövlət qeydiyyat nişanlı avtobus ilkin məlumata görə mühərrikində baş vermiş qısa qapanma səbəbindən alov alaraq yanıb.

Baş Dövlət Yol Polisi İdarəsindən AZƏRTAC-a bildirilib ki, ölən və xəsarət alan olmasa da, avtobus yararsız hala düşüb.

## Dünyada 5 milyard insan sosial medianın aktiv istifadəçisidir




Kepios rəqəmsal konsaltinq firmasının araşdırmasına görə, dünyada təxminən beş milyard insan və ya dünya əhalisinin 60 faizi sosial medianın aktiv istifadəçisidir.

Belə ki, 2022-ci ildən bəri sosial şəbəkə istifadəçilərinin sayı 3,7 faiz artaraq bütün internet auditoriyasının sayına (5,19 milyard nəfər) yaxınlaşıb. İstifadəçilərin sosial mediada keçirdikləri vaxt da artaraq gündə orta hesabla 2 saat 26 dəqiqəyə çatıb. Araşdırmaya görə, sosial şəbəkələrdə ən çox vaxt keçirən 16-24 yaş arasında qadınlardır, 55-64 yaşlı kişilər isə ən az aktivdir.

İnsanların sosial şəbəkələrdə keçirdikləri vaxt regionlara görə dəyişir. Belə ki, Şərqi və Mərkəzi Afrikada hər 11 nəfərdən yalnız biri sosial şəbəkə istifadəçisidir. Hazırda dünyanın ən çox əhalisi olan Hindistanda isə hər üç nəfərdən biri sosial mediadan istifadə edir.

## Supermodel kosmetika reklamına görə 11 milyon dollar qazanacaq!



Dünyaca məşhur supermodel Kendal Cenner yeni reklam təklifi alıb. Xarici medianın yazdığına görə, model Fransaya məxsus kosmetika brendinin siması olacaq. Marka siması seçilən Cenner 11 milyon dollarlıq müqavilə imzalayıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**